Bu bir xalq qəzetidi
ƏDALƏT

## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb



**2022-ci ildə Azərbaycan Ordusunda hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla nəzərdə tutulan görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlər həyata keçiriləcək.

## SÜLHMƏRAMLILAR BİZİM EVLƏRİ NƏ VAXT TİKƏCƏKLƏR?!



**Bütün dünyanın gözünə soxulası bir faktdır ki, 44 günlük Vətən müharibəsi dövründə Ermənistanın silahlı qüvvələri Azərbaycanın rayon və kəndlərini raketlərlə, ağır artileriyalarla, minamyotlarla atəşə tutub. Təkcə Tərtər şəhərinə 20 minə qədər mərmi atıldı. Ağdamın, Ağcabədinin, Bərdənin, Gəncənin dinc sakinlərinə nə qədər raket, mərmi atılıb sayı-hesabı yoxdur. Yəni ermənilər müharibədə məğlubiyyətin əvəzini Azərbaycanın dinc sakinlərindən çıxırdılar.**

Amma Azərbaycan yalnız müharibə qanunları ilə vuruşurdu. İstəsəydik biz də Ağdərəni, Əsgəranı, Xankəndini, eləcə də Xocavəndi (Martuni) şumlayardıq. Amma şumlamadıq. Biz Qarabağda Ermənistan ordusu ilə vuruşurduq, dinc erməni əhalisi ilə yox.

İndi sülhməramlılar vurhavur Qarabağdakı ermənilər üçün, özü də ev-eşikləri dağılmamış ermənilər üçün, Azərbaycan kəndlərində ev tikirlər, xəstəxana tikirlər, məktəb tikirlər, kilsə tikirlər, day nə bilim nə edirlər.

Axı 10 noyabr Bəyanatında qeyd edilib ki, qaçqınların öz doğma yurdlarına dönmələrinə də sülhməramlılar şərait yaratmalıdırlar. Qarabağda erməni qaçqın deyil, öz evində-eşiyindədi. Qaçqın bizik - Xocalıdan, Malıbəylidən, Quşçulardan, Cəmillidən, Meşəlidən, Umudludan, Narınclardan, Sırxavənddən, Bağlıpəyədən, Kərkicahandan, sayım, bəsdi? Bəs, sülhməramlılar daşı-daş üstündə qalmayan bu kəndlərdə bizim evləri nə vaxt tikəcəklər? Bizləri nə vaxt öz kəndlərimizə köçürəcəklər?

**Gözləyək, Allah qoysa axırı yaxşı olar.**

## HƏDDİ OLMAYAN DƏLƏDUZLUQ



**Oxuyuram ki, Rasim Əhməd adlı bir şəxs Türkiyənin Marmaris bələdiyyə başkanı ilə görüşüb, əynində də fövqəladə halların hərbi geyimi, polkovnik rütbəsi ilə və bələdiyyə sədrinə Azərbaycan prezidenti İlham Əliyevin salamını çatdırıb, nazir Kəmaləddin Heydərovun təşəkkürünü çatdırıb və nazirin hədiyyəsini təqdim edib.**

Fövqəladə Hallar Nazirliyi bu görüş Türkiyə mediasında yayıldıqdan sonra belə bir şəxsin Türkiyədə yanğınlarda iştirak etmədiyini və nazirlikdə belə bir adamın çalışmadığını, çiynindəki rütbənin də saxta olduğunu Türkiyə tərəfinə bildirib.

Bu adamın şəkili var, yəqin qəbulda olanda da hansısa bir sənəd təqdim edib, yəni onu tapmaq o qədər də çətin deyil.

Bu dələduz dərhal tapılmalı və cəzalandırılmalıdır və başqalarına da görk olmalıdır.

## UKRAYNALILARLA URUSLAR BORŞ ÜSTÜNDƏ DAVAYA QALXDI

***Biz ermənilərlə dolma davası aparırıq, ukraynalılarla ruslar da borş davası aparır.***

***Mejduproçim, Ukraynanın borşu rus borşundan dadlıdır.***

## ABŞ SAAKAŞVİLİ KİMİ ZELENSKİNİN DƏ ARXASINDAN QAÇACAQ



**ABŞ Gürcüstan hadisələrində Saakaşvilinin qoltuğuna qarpızları verdi ki, qorxma, arxanda möhkəm dayanmışam. Və son nəticə, rus qoşunları Tbilisinin 30 kilometrliyinə qədər gəldilər. ABŞ da bir bəyanat verməklə kifayətləndi. Rusiya da ABŞ-ın bəyanatı ilə burnunu silib atdı. Bundan sonra da Cənubi Osetiya ilə Abxaziyanın dövlət müstəqilliyini tanıdı.**

İndi ABŞ və NATO Rusiyanı hədələyir ki, Ukraynaya əl uzatsan qarşında bizləri görəcəksən.

Putin ABŞ-ın yumurtasını Gürcüstanda vurdu dişinə və gördü ki, laxdı.

Əfqanıstandan tələm-tələsik qoşununu götürüb çıxan ABŞ və NATO-nun Rusiya ilə baş-başa gələcəyi inandırıcı görünmür. Saakaşvilinin arxasından qaçdığı kimi Zelenskinin də arxasından qaçacaq.

Uzaqbaşı, bir-iki bəyanat, ya da uzaqbaşı bir-iki sanksiya tətbiq edəcək, bu da Rusiyanın çox vecinədi.

40 ildi ABŞ və Avropa ölkələri İrana sanksiya tətbiq edib, amma İran İran olaraq qalır. Sanksiyalar Rusiyaya da müəyyən təfovut eləyər, amma ağdamlılar demiş, az təfovut edir.

Boş çanağımı sənin dolu çanağına elə vuraram ki… Bu, məşhur Azərbaycan atalar sözüdü, yəni boş çanağımı sənin dolu çanağına vuraram sənin çanağın da qırılar və içindəkilər dağılar.

**İndi hamımız bilirik ki, Rusiyanın çanağı boşdur, yəni itirəcəyi heç nəyi yoxdur. Dünyada iki super dövlətdən biri olmasına baxmayaraq, əhalisi (Moskva və Sankt-Peterburqu və bir neçə şəhəri çıxmaq şərtilə) acınacaqlı vəziyyətdə yaşayır, amma ABŞ və Avropa ölkələri bəy balası kimi. Yəni bir Ukraynaya görə bəy balaları isti aşlarına soyuq su qatmazlar.**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 1 (5938) 8 yanvar 2022-ci il | Qiyməti 30 qəpik

# Türk Dövlətləri Təşkilatı Qazaxıstanla bağlı fövqəladə iclas keçirəcək



**Türk Dövlətləri Təşkilatı ölkələrinin xarici işlər nazirlərinin fövqəladə iclası keçiriləcək.**

**Təşkilatdan bildirilib ki, iclasın gündəmi Qazaxıstandakı son vəziyyətlə bağlı olacaq. İclasın keçirilməsi ilə bağlı təşəbbüs təşkilata sədrlik edən Türkiyə tərəfindən irəli sürülüb. Yanvarın 11-də baş tutacaq iclas onlayn formatda keçiriləcək.**

## Üçtərəfli Komitənin yaradılması haqqında protokol təsdiqləndi



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Türkiyə hökuməti, Azərbaycan hökuməti və Gürcüstan hökuməti arasında gömrük məsələləri üzrə Üçtərəfli Komitənin yaradılması haqqında" protokolu təsdiqləyib.**

Tərəflər arasında bütün müvafiq sahələr üzrə əməkdaşlığın inkişafı Komitə və onun işçi qrupları çərçivəsində həyata keçirilir. Komitə Tərəflər arasında gömrük məsələləri üzrə əməkdaşlığı əlaqələndirir, təşviq və inkişaf etdirir, eləcə də əsaəs əməkdaşlıq sahələrini və istiqamətlərini müəyyən edir.

Xatırladaq ki, sənəd 2021-ci il oktyabrın 8-də imzalanıb.

## UN VƏ ÇÖRƏYİN BAHALAŞMASI YAXŞI OLMADI



**Azərbaycan xalqı çörəyi də çörəklə yeyən xalqdı. Yəni bizi dünyanın çörəyi az yeyən xalqları ilə müqayisə etmək düzgün deyil. İndi birdən-birə unun qiymətinin təxminən 30 faiz bahalaşması yolverilməzdir.**

Bəli, yaxşı başa düşürük, dünyada iqtisadi böhrandır. Bütün dünyada ərzaq məhsulları bahalaşır, o cümlədən də buğdanın qiyməti. Bir tərəfdən də COVİD 19-un gətirdiyi böhran. Ehtiyatlı oğulun anası ağlamaz deyirlər, hökumət, ölkənin iqtisadçıları vaxtında bunu duymalıydılar, bilməliydilər və müəyyən tədbirlər görməliydilər. Və bu tədbirlərdən biri də taxıl ehtiyatını artırmaq idi.

Yeri gəlmişkən, Almaniya vaxtında Rusiyadan o qədər qaz alıb anbarlara doldurdu ki, indi özü ucuz qiymətə Ukraynaya qaz satır.

Hökumət papağını qabağına qoyub bir çıxış yolu fikirləşməlidir. Siqaret, şərab bahalaşır, heç kəs dillənmir, çünki kiməsə deyə bilərsən siqaret çəkmə, ya şərab içmə. Amma heç kəsə deyə bilməzsən çörək yemə.

Heç kəsə sirr deyil ki, ölkəmizdə əkin sahəsi azdı. Və yüz min hektarlarla əkin sahələri 30 ildir istifadəsiz qalıb, işğal altında olub, minalanıb. Mən iqtisadçı deyiləm, amma kənd təsərrüfatını yaxşı bilirəm. İşğaldan azad olmuş ərazilərimizi minalardan təmizləməklə və əlimizdə olan əkin sahələrini maksimum və elmi şəkildə istifadə etməklə Azərbaycan özü öz əhalisini çörəklə təmin edə bilər. Bu boyda elmi tədqiqat institutları var, bir belə alimlər çalışır, amma hələ də hektardan 30-35 sentner taxıl götürürük. Hələ bəzən su çatışmazlığından məhsuldarlıq daha aşağı düşür.

**Bu barədə gələcək yazımızda.**

## QAZAXISTANDA GÜNAH KEÇİSİNİ TAPDILAR VƏ TUTDULAR

**Ölkənin Manqistau vilayətinin Janaozen rayonundakı təbii qaz emalı zavodunun direktorunu tutublar ki, guya qazı o bahalaşdırıb. Yəni doğrudan bir zavod direktoru birdən-birə qazı yüz faiz bahalaşdıra bilir, özü də hökumətdən xəbərsiz?**

***Mehman CAVADOĞLU***



## Qazaxıstan dilemması

### və yaxud dövlət nədən talançı və qarətçilərlə bacara bilmir?

**Yeni ilin ilk günlərindən maye qazın qiymətində baş vermiş kəskin artıma görə Qazaxıstanda başlayan etirazlar aksiyaları artıq məcrasından çıxıb. Hökumət elə ilk gündən aksiyaçıların tələblərini yerinə yetirmək üçün ciddi addımlar atsa da prosesi cilovlamaq mümkün olmayıb, qərb rayonlarından başlayan etirazlar az müddət ərzində bütün ölkəni bürüyüb. Ən pisi də budu ki, hadisələr dinc məcrasından çıxaraq küçə döyüşləri xarakteri alıb. Artıq hadisələrin episentrindən gələn informasiyalarda yaralanan, ağır-yüngül xəsarət alanlarla yanaşı həlak olanlar barədə də məlumatlar yer almağa başlayıb. Özü də hər iki tərəfdən. Bir sözlə, mitinq və nümayişlər küçə döyüşləri mərhələsinə qədəm qoyub.**

**Bax: səh.3**



**Qazaxıstanda ara qarışıb, hökumət başını itirib, prezident də hökuməti istefaya göndərib ki, gedin başınızı tapın.**

## *Şagirdlərin yerdəyişməsi prosesi müvəqqəti dayandırılır*

**Yanvarın 12-si saat 18:00-dan etibarən şagirdlərin elektron yerdəyişməsi portalı (www.sy.edu.az) vasitəsilə sorğuların qəbulu müvəqqəti dayandırılacaq.**

Təhsil Nazirliyindən verilən məlumata görə, səbəb məktəblərdə siniflərin II yarımil üçün komplektləşdirilməsidir. Portalın fevral ayının ikinci yarısında yenidən aktivləşdirilməsi planlaşdırılır. Buraxılış imtahanlarına görə XI sinif şagirdlərinin yerdəyişməsi tədris ilinin sonunadək aktiv edilməyəcək.

## GÜNÜN ƏN GÖZƏL XƏBƏRİ

*Bir xəbər oxudum ki, unun və çörəyin qiymətlərinə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti nəzarəti gücləndirib. Amma xəbəri iki-üç dəfə oxudum, heç nə anlamadım, "nəzarəti gücləndirib" deyəndə unun və çörəyin qiymətini aşağı salıb? Xəbərdə yazılır: "Un və ənənəvi (dairəvi) çörəyin qiymətində və çəkisində əsassız dəyişikliyin qarşısının alınması və keyfiyyət parametrlərinə nəzarətin həyata keçirilməsi məqsədilə istehlak bazarında mütəmadi monitorinq aparılır, Antiinhisar qanunvericiliyinə riayət olunmasına dair zəruri tədbirlər görülür".*

*Bundan gözəl xəbər ola bilər?*

## POLİSİN AİLƏSİ DƏ QAZDAN VƏ BENZİNDƏN İSTİFADƏ EDİR DƏ



***Deməli, Qazaxıstanın Aktobe şəhərində polis etiraz aksiyaları keçirənlərin tərəfinə keçib və aksiyanı dağıtmağı dayandırıb.***

## İLİN BALTALANMA HADİSƏLƏRİ

*Ağstafada bir arvad ərini balta ilə öldürmüşdü. Yanvarın 4-də də Bakıda Orxan Əliyev arvadı Həmidə Həsənovanı baltalayıb.*

*Astarada da Təngərüd kəndində iki bacı qardaşları Fariz Qəmbərovu baltalayıblar. İncəvara Fariz sağ qalıb, yaralıdır və Lənkəran xəstəxanasında yatır. İlkin məlumata görə, bacılar ruhi xəstədirlər.*

***Aqil ABBAS***
*aqilabbas@rambler.ru*

## MÜƏLLİM VURAN YERDƏ GÜL BİTƏR



***Müəllim şagirdi yerə yıxıb eşşək sudan gələnə kimi, dəli inək balasını çığnayan kimi çığnadı...***

***Məşhur filmdə deyildiyi kimi:***

***- Yaz ki, pilləkandan yıxılıb ölürlər.***

***- Davud, bəlkə yazım ki, yıxılıb əzilirlər.***

***- Ölürlər, yaz, o yaxşıdı.***

***Üç gündür sosial şəbəkədə bir məktəb direktorunun yuxarı sinif şagirdinə yüngül bir şillə vurmasını paylaşırlar. Və şəbəkədə müəllimi linç edirlər - polisə veriblər, araşdırırlar və sair və ilaxır. Türklərdə belə bir söz var: "Hoca vurduğu yerdə gül bitər".***

**Bax: səh.2**



## NƏ QƏDƏR AĞILSIZ VƏ KÜTBEYİN OLMALISAN Kİ...

Baxıram, sosial şəbəkələrdə Qazaxıstanda baş verən hadisələrə sevinənlər, alqışlayanlar var. Nə qədər kütbeyin və ağılsız olmalısan ki, dini bir, qanı bir, dili bir qardaşlarının faciəsinə sevinəsən, dəm tutasan.

Yaxşı ki, belə adamların sayı çox azdır, cəmiyyətdə də hörmət sahibi, söz sahibi deyillər.

## Prezident İlham Əliyev Medvedevə etiraz məktubu göndərib



**Rusiya Dövlət Dumasının deputatı Vitali Milonov Azərbaycan ərazilərinə növbəti dəfə qanunsuz səfər edib.**

Hakim "Vahid Rusiya" partiyasının üzvü Yeni il günlərində Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan Azərbaycan ərazilərinə qeyri-qanuni səfər edərək, orada bir sıra görüşlər keçirib.

Onun bu addımı Azərbaycan rəhbərliyinin ciddi etirazına səbəb olub.

Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev "Vahid Rusiya" partiyasının sədri Dmitri Medvedevə məktub göndərərək, onun rəhbərlik etdiyi partiya üzvünün Azərbaycan ərazilərinə qeyri-qanuni səfər etməsinə qəti etirazını bildirib.

**Qeyd edək ki, V. Milonov bundan əvvəl də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı dəfələrlə hörmətsizlik nümayiş etdirib.**

## *Hərbi qulluqçularımız beynəlxalq təlimlərdə iştirak edəcək*



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlər davam etdirilir.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, 2022-ci tədris ilində hərbi qulluqçularımızın 30-dan artıq beynəlxalq təlim və yarışlarda iştirakı planlaşdırılır.

"Eternity - 2022", "EFES - 2022", "Sarsılmaz Qardaşlıq - 2022", "Qış təlimi - 2022", "Beynəlxalq Ordu Oyunları - 2022" və digər beynəlxalq təlim və yarışlar bura cəlb ediləcək hərbçilərimizin qarşılıqlı təcrübə mübadiləsi nəticəsində bilik və bacarıqlarının artırılmasına müsbət təsir edəcək.

Bundan başqa cari il ərzində hərbi qulluqçularımızın müxtəlif beynəlxalq seminar və konfranslarda iştirakı da nəzərdə tutulub.

## *FHN əhaliyə müraciət etdi*




**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, yanvarın 8-i səhərdən başlayaraq yanvarın 9-u səhərədək ölkə ərazisində bəzi ərazilərdə, xüsusilə Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişəcəyi, güclü külək əsəcəyi proqnozlaşdırılır.**

Fövqəladə Hallar Nazirliyindən (FHN) verilən məlumata görə, gözlənilən güclü küləkli hava şəraiti ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək müvafiq təhlükəsizlik qaydalarına əməl etməyə çağırır.

Belə ki, güclü küləyin səbəb ola biləcəyi təhlükələrdən qorunmaq üçün diqqətli davranaraq yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur.

Həmçinin, güclü külək zamanı baş verən yanğınların söndürülməsinin mürəkkəbliyi nəzərə alınaraq, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!

## *"YAŞAT" Fonduna müraciətlərin sayı açıqlandı*

**8 yanvar 2021-ci il tarixində "YAŞAT" Fondunun yashat.gov.az portalı istifadəyə verilib. Həmin tarixdən Fondun 8110 Çağrı Mərkəzi fəaliyyətə başlayıb. Bu günə qədər Çağrı Mərkəzinə 82 mindən çox vətəndaş zəngi daxil olub, şəhidlərin ailə üzvlərinin və yaralıların ümumilikdə 15 minə yaxın müraciəti qeydiyyata alınaraq aidiyyati üzrə yönləndirilib.**

Fonddan AzVision.az -a verilən məlumata görə, bunların 5000-ə yaxını şəhidlərin ailə üzvlərinin, 9000-dən çoxu isə yaralıların müraciətləridir. 8110 Çağrı Mərkəzinə zənglər tam ödənişsizdir.

"YAŞAT" Fondu ölkə Prezidentinin 8 dekabr 2020-ci il tarixli 1203 nömrəli Fərmanına əsasən yaradılıb. Fond Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçuların və şəhid olmuş şəxslərin ailələrinin üzvlərinin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi üçün şəffaf, effektiv və əlçatan platformanın formalaşdırılması məqsədilə yaradılıb.

# 77640 nəfər işsiz və işaxtaran şəxs işlə təmin edilib




**2021-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 77640 nəfər işsiz və işaxtaran şəxs işlə təmin edilib.**

Bu barədə məşğulluq sahəsində ötən ilə dair fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda qeyd edilib.

İclasda bildirilib ki, ötən il 16232 şəxs özünüməşğulluq proqramına cəlb olunmaqla, onların seçdikləri biznes istiqamətləri üzrə aktivlərlə təminatı işləri aparılıb. Bu da proqramın icrasına başlandığı 2017-ci ilə nisbətən 13,6 dəfə çoxdur.

Həmçinin Nazirlik və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi iştirakçılarının aktivlərlə təminatına da artıq başlanıb. Bu layihə özünüməşğulluq proqramının daha da genişlənməsinə mühüm dəstək olaraq, 22 min işsiz şəxsin özünüməşğulluq formasında kiçik biznes qurmasına dəstək olacaq.

2021-ci ildə Dövlət Məşğulluq Agentliyi tərəfindən əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına 491 nəfər, peşə hazırlığı kurslarına 988 nəfər, peşəyönümü məsləhət xidmətlərinə 1886 nəfər cəlb olunub. 3734 nəfərə isə işsizlikdən sığorta ödənişi verilib.

Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailələrinin, müharibə əlilləri və iştirakçılarının, erməni terrorundan zərər çəkən mülki şəxslərin, onların ailə üzvlərinin məşğulluğuna dəstək işləri də qeyd edilib. Postmüharibə dövründə bu kateqoriyalara aid 10 minədək şəxsin məşğulluğuna dəstək göstərildiyi, o cümlədən 6 minədək şəxsin özünüməşğulluq proqramına cəlb edildiyi, 4 minədək şəxsin işlə təmin olunduğu diqqətə çatdırılıb.

Bu günlərdə Agentliyin Bakı Peşə Hazırlığı Mərkəzinin ISO beynəlxalq sertifikatı aldığı və ölkəmizdə ilk ISO sertifikatlı peşə hazırlığı müəssisəsi olduğu qeyd edilib, artıq yaxın vaxtlarda bu standart üzrə peşə hazırlığının təşkil ediləcəyi bildirilib.

**İclasda əsas prioritetlərdən biri kimi məşğulluq xidmətlərinin rəqəmsal platformasının qurulması və keyfiyyətinin artırılması, aktiv məşğulluq proqramlarının daha da genişləndirilməsi sahəsində görülmüş işlərdən, 2022-ci ildə Dövlət Məşğulluq Agentliyi qarşısında duran vəzifələrdən də bəhs olunub.**

# Avropa İttifaqı Rusiyaya xəbərdarlıq etdi



**Qazaxıstanda baş verən qanlı qarşıdurmanın yatırılması üçün Prezident Tokayevin Kollektiv Təhlükəsizlik Təşkilatına kömək məqsədilə müraciət etməsi Avropa komissiyasını narahat edib. Xüsusilə Rusiyanın sülhməramlılar adı altında Qazaxıstana hərbi desant bölmələrini göndərməsi ciddi narazılıq yaradıb.**

KTMT-nin faktiki olaraq Rusiyanın 2000 nəfərlik hərbi kontingentinin (digər üzv dövlətlər simvolik olaraq 70-200 nəfərlik hərbiçisinin qiyamı yatırmaqda hər hansı bir rol oynayacağı inandırıcı görünmür) hansı fəsadlar törədə biləcəyi, Qazaxıstanın suverenliyinə hansı zərbələr vura biləcəyi hələ ki məlum deyil. Lakin artıq minlərlə yaralanan və onlarla ölənlər barədə məlumatlar yayılır.

Avropa İttifaqı Rusiyanı Qazaxıstanın suverenliyinə və müstəqilliyinə hörmətlə yanaşmağa çağırıb. Aİ həmçinin tərəfləri anlaşıqlı hərəkət etməyə çağırıb. "Zor və güc tətbiq olunması təcili dayandırılmalıdır. Tərəflər vəziyyətin sülh yolu ilə həll edilməsinə çalışmalıdır. Avropa İttifaqı ölkədə dialoqa kömək etməyə hazırdır" - deyə Aİ-nin nümayəndəsi bildirib.

**Rusiya tərəfi sülhməramlıların silah tətbiq etməyəcəyini, yalnız dövlət əhəmiyyətli binaların və obyektlərin mühafizəsi ilə məşğul olacağını bildirsələr də, verilən məlumatlara və yayılan videogörüntülərə görə, sülhməramlılar silah tətbiq etməklə bir çox yerlərdə etirazçılarla silahlı qarşıdurmaya gedir. Artıq sülhməramlıların içində yaralıların olduğu, hətta bir nəfərin öldürüldüyü barədə məlumatlar yayılmaqdadır.**

**Rüstəm Hacıyev**

# Makkonnell Rusiyadan gələn təhlükəyə qarşı qətiyyətli olmağa çağırır



**ABŞ senatında azlığın lideri Moskvanın təkcə Ukraynaya deyil, həmçinin Avropaya, NATO-ya və ABŞ-ın milli təhlükəsizliyinə qarşı təhlükə olması barədə xəbərdarlıq edib. Senatın xarici siyasət məsələləri ilə bağlı iclasında çıxışı zamanı senator bəyan edib ki, ABŞ və NATO Rusiyanın təhdidlərinə qətiyyətlə cavab verməlidir.**

"Bayram günlərində yemək-içməkdən doymayan Rusiya prezidenti Putinin tələbləri daha da kəskinləşib. Həmçinin Rusiyanın təhdidləri təkcə Ukraynayla yekunlaşmır. O, həmçinin Avropanı, NATO-nu və bizim milli maraqlarımızı da təhdid edir"- deyə Makkonnell bəyan edib.

"Putinə Ukraynanın bütövlüyünə xələl gətirməsi üçün güc tətbiq etməsinə imkan vermək olmaz. Təhdidlərlə Qərbdəki dostlarımızın bizim prisipləri satmaqla, onların prisiplərini qəbul etmələrinə, Rusiyanın təsiri altına düşmələrinə imkan verilməməlidir"- deyə senator əlavə edib.

"Administrasiya və bizim tərəfdaşlarımız vəzyyətin yumşalmasına çalışmalıdırlar.

Lakin bu bizim tərəfdaşlarımızın təhlükəsizliyinə xələl gətirilmədən edilməlidir" - deyə Makkonnell təklif edib.

"Putin üçün söhbət təkcə Ukraynadan getmir. O, NATO-nun və Avropanın parçalanmasına, qonşu dövlətlər üzərində hegemonluq etməyə çalışır. Mən Prezident Baydenin Rusiyanın aqressiyasının qarşısının alınması ilə bağlı çağırışlarına qoşuluram. Lakin administrasiya bu məsələ ilə bağlı təcili hərəkətə keçməlidir. Prezident NATO tərəfdaşları ilə birgə kontingentdə kollektiv hərbi mövqeyini gücləndirməlidir.

Hətta bu böhran sakitləşərsə, Rusiya və Çin tərəfindən uzun müddətli təhlükə sovuşmayacaq"- deyə senator xəbərdarlıq edib.

Makkonnell həmçinin Avropanın enerji siyasətinə yenidən baxmasını və "Şimal-2" qaz kəməri layihəsini dayandırmalı olduğunu bəyan edib.

**"Birləşmiş Ştatlar, NATO və bütün tərəfdaşlarımız təcili hərəkətə keçməlidirlər. Əks halda biz təəssüf edəcəyik" - deyə o, xəbərdarlıq edib.**

**Rüstəm Hacıyev**

# Elektron sistemdə 300 manatdan aşağı maaşın qeyd olunması məhdudlaşdırılıb

**Ölkəmizdə minimum əməkhaqqının 300 manata çatdırılması ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti iş yerlərində minimum əməkhaqqının həmin məbləğdən az olmaması üçün ciddi nəzarət tədbirləri görür.**

Bu barədə Nazirlikdə keçirilən, Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2021-ci ilə dair fəaliyyətinin yekunlarına və Xidmətin qarşısında duran vəzifələrə həsr olunmuş iclasda bildirilib.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin Sərəncamları ilə ölkəmizdə əməkhaqqı sisteminin inkişafında ciddi irəliləyişə nail olunduğunu vurğulayıb.

O, 2019-cu ilin əvvəlində 130 manat təşkil edən minimum əməkhaqqının son 3 ildə 2,3 dəfə artırılaraq 300 manata çatdırıldığını, bu il üçün yaşayış minimumunu (210 manat) 43 faiz üstələdiyini bildirib.

İclasda iş yerlərində minimum əməkhaqqının 300 manatdan az olmaması üçün ciddi nəzarətin həyata keçirilməsinin, bununla bağlı işçilərin əmək hüquqlarının qorunmasının vacibliyi qeyd edilib.

Yeni tədbirlər planı əsasında bu istiqamətdə aparılan işlər diqqətə çatdırılıb.

Qeyd olunub ki, "Əmək müqaviləsi bildirişi" altsistemi vasitəsilə bu sahədə vəziyyətə elektron nəzarət olunur. Əmək müqavilələri, eləcə də müqavilələrə dəyişiklik edilməsi və ya xitam verilməsi barədə bütün məlumatlar həmin altsistemdə əhatə olunub.

Altsistemdə əmək müqaviləsində minimum əməkhaqqından aşağı məbləğdə əməkhaqqının qeyd olunmasına məhdudiyyət tətbiq olunub. Bu il yanvarın 1-dək 300 manatdan aşağı əməkhaqqı qeyd edilmiş əmək müqavilələrində artıq yeni ilin ilk günündən müvafiq düzəlişlər edilməsi üçün elektron sistem vasitəsilə aidiyyəti işəgötürənlərə xəbərdarlıq mesajı da çatdırılıb.

**İclasda əmək qanunverciliyinə əməl olunmasına dövlət nəzarəti, eləcə də əmək münasibətləri sahəsində inzibati xətaların elektron informasiya sistemləri vasitəsilə aşkarlanması, həmin xətalarla bağlı e-qaydada inzibati icraatın tətbiqi sahəsində görülmüş işlər və Xidmətin qarşısında duran vəzifələr müzakirə olunub.**

<u>*Aqil ABBAS*</u>

# MÜƏLLİM VURAN YERDƏ GÜL BİTƏR

***Müəllim şagirdi yerə yıxıb eşşək sudan gələnə kimi, dəli inək balasını çığnayan kimi çığnadı...***

***Məşhur filmdə deyildiyi kimi:***

***- Yaz ki, pilləkandan yıxılıb ölürlər.***

***- Davud, bəlkə yazım ki, yıxılıb əzilirlər.***

***- Ölürlər, yaz, o yaxşıdı.***

***Üç gündür sosial şəbəkədə bir məktəb direktorunun yuxarı sinif şagirdinə yüngül bir sillə vurmasını paylaşırlar. Və şəbəkədə müəllimi linç edirlər - polisə veriblər, araşdırırlar və sair və ilaxır. Türklərdə belə bir söz var: "Hoca vurduğu yerdə gül bitər".***

***Müəllimin şagirdinə zor tətbiq eləməsinin əleyhinəyəm. Amma müəllimin buna görə linç edilməsinin də əleyhinəyəm.***

***Uşağı atası döyə bilər, anası döyə bilər, amma müəllim hansısa bir tərbiyəsizliyinə görə bir balaca tənbeh edəndə aləm dəyir bir-birinə. İndi bir jurnalist araşdırmır ki, o məktəb direktoru şagirdini niyə bu cür tənbeh edib, hansı hərəkətinə görə.***

***Müəllim şərəfli işdir və özü də ən çətin bir peşədir. Bir sinifdə 35 şagird, müxtəlif ailələrdə tərbiyə görmüş, hərənin bir xarakteri, oxuyanı-oxumayanı, dəcəli və sair və ilaxır. İndi müəllim bunların hamısı ilə dil tapmalı, həm onlara elm öyrətməli, həm də təlim-tərbiyəsi ilə məşğul olmalıdır.***

***Bir dəfə yazmışdım, bu maaşla bizim uşaqlara dərs deyən müəlimlər hamısı milli qəhrəmanlardı. Bizi yetişdirən, adam edən müəllimlərimizdir. Bizim hamımız müəllimlərə borcluyuq. Amma biz bunları unuduruq.***

***İndi məktəb direktoru bir şagirdi tənbeh edir. Məktəbdə 1000-1500 nəfər şagird təhsil alır, yenə deyirəm, hərəsi də bir xarakterə malik. İndi heç birimiz bilmirik ki, bu məktəb direktoru niyə şagirdi belə tənbeh edib. Şagird nə etmişdi, hansı xətaya yol vermişdi və sair və ilaxır. İndi araşdırırlar. Yəqin sonda məktəb direktorunu işdən çıxaracaqlar, günahkar o çıxacaq.***

***Hər bir şagird müəllimin övladıdır. Müəllim öz doğma övladını necə sevirsə, şagirdini də elə sevir. Ata-ana övladını sevgidən hər hansı bir xətasına görə cəzalandırırsa, müəllim də şagirdin hər hansı bir xətasına görə sevgidən onu cəzalandırıb.***

***Əziz valideynlər, hər bir xırda tənbehdən ötəri əvvəl özünüz məsələni araşdırın, sonra polisə müraciət edin.***

***Müəllim övladınız üçün yanan bir şamdır, o şamı söndürməyə tələsməyin.***

# Qarabağda Rusiya SM -ın həkimləri pandemiyaya qarşı tədbirlər həyata keçirdi

**Rusiya sülhməramlılarının həkimləri Dağlıq Qarabağda dezinfeksiya işləri aparıblar.**

Adalet.az Sputnik Armenia saytına istinadən xəbər verir ki, məlumatı Rusiya Müdafiə Nazirliyi yayıb.



Sayt yazır ki, Dağlıq Qarabağdakı Rusiya SM-nın tibb məntəqəsinin əməkdaşları mütəmadi olaraq yerlərdə dezinfeksiya işləri aparır:"Kontingentin tibb dəstəsinin mütəxəssisləri koronavirusun yayılmasına qarşı bir sıra qabaqlayıcı tədbirlər həyata keçiriblər. Sanitariya-epidemiologiya idarəsinin həkim briqadası Rus Pravoslav Kilsəsində İsa Məsihin mövludu şərəfinə dezinfeksiya işləri aparıb.

Onlar həmçinin şəxsi heyətin yaşadığı ərazilərdə və qrupun digər obyektlərində profilaktik tədbirlər davam etdirirlər.

**Qeyd edək ki, Qarabağda koronavirus pandemiyasının geniş yayıldığını erməni mediası dəfələrlə bildirib.**

**Əntiqə Rəşid**

<u>*Vaqif Qarayev*</u>

# Uşaqları qoruyaq



***"Son vaxtlar uşaqlar arasında yayılan virusun adı nədir?".....Hamı soruşur....mətbuat da, valideynlər də...***

***Əvvəllər belə deyildi...adi burun tutulmasına da "qripəm" deyib keçirdik....indi covid elə vəziyyət yaradıb ki, hamı virusun adını bilmək istəyir.....anlaşılandı....***

***İndiki xəstəlikləri yaradan QRİP(influenza) virsudu...***

***Güclü yoluxuculuq müşahidə olunur.....aqressiv qızdırma, üzücü quru öskürək, burun axıntısı, boğaz ağrıları əsas əlaəmtələridi bu xəstəliyin....***

***Südəmər uşaqlar xəstəliyin ilk günündən həkim müayinəsindən keçməlidir...digər yaş qruplarında qızdırma 3-4 gündən artıq davam edərsə həkim müayinəsi vacibdir! Evdə yalnız qızdırmaslıcıların terapevtik dozasından istifadə etmək olar....antibiotik və digər dərmanları müayinədən sonra həkim yazacaq...özünümüalicə düzgün deyil!***

***Qorunma yolları standartdır...əlləri tez-tez yumaq, maskadan istifadə etmək, insanların sıx olmadığı yerlərdə açıq havada olmaq, qida rasionunda meyvə-tərəvəzdən bol istifadə etmək...***

***Xəstə uşaq bağçaya və məktəbə getməməlidir! Yoxsa, yoluxma azalmayacaq!***

***Uşaqları qoruyaq!!!***

*Fazil Mustafa*



# AĞIZLA QULAĞIN DİALOQU

***1990-cı ilin yanvarında hansı ssenari vardı? Küçəyə çıxanın adı xalq idi. Həmin xalq da silahlanmışdı: armaturla, əl qumbaraları ilə. Bir də mərhum Xəlil Rzanın dediyi yumruqla silahlanmışdı. Şəhərdə ilk öncə məchul şəxslər tərəfindən qondarma erməni ovu ssenarisi işə düşdü. Sonra da hamımız küçələrdə, barrikadalarda böyük direniş qələbəsini qeyd etməyə çıxdıq.***

***Nəticədə Sovet ordusunun əsgərlərinin güllləbaranından başlayan fövqəladə vəziyyət və hakimiyyət dəyişikliyi. O zaman təkəldə olan məhdud informasiya məkanında xalq sözünü artıq ekstremistlərlə əvəz etmişdilər. Nəticədə Qarabağa yaxınlaşaq dediyimiz halda Qarabağdan daha bir addım uzaqlaşdıq. Ancaq 20 yanvarda tökülən qan az da olsa bizi dünya reallığını anlamağa yönəltdi. Az-çox ağlı başında olan insanlar Maltadakı gəmidə Buş-Qorbaçov görüşündən şübhələnməyə başladı. Bu gün Xəzərin o tərəfinə boylanıb Qazaxıstan faciəsinin sevincini yaşayanlar üçün sadə bir xatırlatma idi bu. Orada da eyni qaydada xalq ayağa qalxdı. Mövzunun nə dəxli var? Qarabağ da ola bilər, maye qaz da, qazlı su da, ağ un da! İlk öncədən artıq real hakimiyyətdə olmayan Elbası Nursultanın istefasını tələb etdilər. Bir neçə il sonra qazax qardaş- bacılarımız qəfildən bir-birindən mütləq soruşacaqlar: niyə məhz Nursultan? Sonra polislərə hücum edildi. Maşınları, binaları yandırdılar. Molla Nəsrəddinin yorğan davasına bənzəyən bir ssenari baş tutdu. Dava Nursultan davası idi. Qonşunun qoşununun gəlməsi üçün əngəl olan Nursultan getməliydi. Nursuz, Sultansız Qazaxıstan lazım idi. Bütün informasiya vasitələrində dərhal tanıtımlar dəyişdi. Artıq xalqdan söhbət getmir. Təxribatçı, bandit, soyğunçulardan danışılır. Xalqın adından da kollektiv təhlükəsizlik qoşunlarını ölkəyə çağırdılar. Həm də xalqı qarətçilərdən, təxribatçılardan qorumaq üçün. Nə olacaq? Heç nə! Belorusa nə oldu ki? Qazaxıstan da bu təlatümdən sonra kənardan özünüzü inandırdığınız demokratiya qatarı kimi yarı Şərq, yarı Qərb relsləri üzərindən şütüməyəcək. Bu ölkədə onsuz da Nursultanın iradəsi ilə Orta Asiya üçün mümkün olan demokratiya var idi. Ən azı isə addım-addım məqsədyönlü şəkildə gerçəkləşən qazax idealı vardı. Müstəqil qatar olmaq istəyən dövlətlərin xalqı camaat qafası ilə mühakimə yürüdəndə onun dövlətini də idarəsiz vaqon kimi başqa qatarlara qoşurlar.***

***Nursuz, Sultansız Qazaxıstanın maye qazı da olacaq, yemək-içməyi də! Bəlkə də daha çox olacaq. Ancaq burada türklərin Məkkəsi kimi Nursultanın yaratdığı Türküstan şəhərinin ruhu Qazaxıstanın canından uçub gedəcək...Haraya? Əlbəttə Kosmodroma- Baykanura! Amma Bayka Nur qazax üçün əsla Sultan Nur olmayacaq!***

***Xalqı da sevməliyik, dövləti də. Xalqı da yaşatmalıyıq, dövləti də.***

***Şuşa ilimizi, Zəngəzur yolumuzu yarımçıq qoymamaq üçün xalqın, dövlətin başından ayağınadək qan dövranının sağlam dolaşmasına məsuliyyət daşıdığımız anlamalıyıq. Oxşar ssenariləri bizdə də kopyalamağa çalışırlar. Demokratiya çağırışlarına tanış zirehli qatarının fitinin qarışdığını az sonra sezəcəksiniz.***

***Əgər qələbənin, xalqın, dövlətin, Şuşanın, Zəngəzurun dəyərini bilirsinizsə, məsuliyyətini daşıyırsınızsa, hökmən sezəcəksiniz!***

***Qazaxıstanda hələ ki, ağız deyəni qulaq eşitmir. Ağızla qulağın dialoqu gecikəndə belə olur. Dialoqa qayıtmalıyıq. Hər kəsin hər kəsə xalq qarşında, Vətən qarşısında, Dövlət qarşısında, şəhidlərimiz qarşısında borcunu xatırlatmaq üçün!***

## *Rusiya parlamentindəki türk deputat: "Asiya rus torpağıdır, Qazaxıstan Rusiyaya birləşdirilsin"*




**Əslən Dağıstanın Xasavyurd diyarında doğulan, milliyyətcə qumuq (türk) olan, hazırda Rusiyanın qanunverici orqanında çalışan deputat Sultan Həmzəyev nəinki rusiyalı türklərin , eləcə də dünyadakı türklərin birmənalı qarşılamayacağı bir fikri dilə gətirib.**

Adalet.az xəbər verir ki, deputat sosial şəbəkə hesabında Asiyanın rus torpağı olmasından və Qazaxıstanın Rusiyaya birləşdirilməsindən danışıb:"Orta Asiya rus torpağıdır. Şəbəkə Qazaxıstanın Rusiyaya mümkün birləşməsini müzakirə edir. Şəxsən mənim siyasətdən və vəzifədən asılı olmayaraq Rusiya Federasiyasının vətəndaşı kimi mövqeyim budur. Mən Qazaxıstanın tarixi vətəni - Rusiya ilə birləşməsi ilə bağlı Qazaxıstanda referendumun keçirilməsinin tərəfdarıyam. Qeyd edim ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev özü bütün bəyanatlarını rus dilində edir. Düşünürəm ki, bu, əsl demokratiyanın yaxşı təzahürü olacaq",

**Qeyd edək ki, Qazaxıstandakı iğtişaşları yatırtmaq üçün ora Rusiya - 3000, Belarus- 500, Tacikistan - 200, Ermənistan - 70 nəfər sülhməramlı göndərib.**

**Əntiqə Rəşid**

# O vaxt bizə deyirdilər ki, Şuşa necə paytaxt ola bilər?

**Prezident İlham Əliyevin 2022-ci ili Şuşa ili elanetməsi ölkə ictimaiyyəti tərəfindən böyük rəğbət vərazılıqla qarşılanıb.**

**Adalet.az bununla bağlı ekspertlərin münasibətini öyrənib.**



***Millət vəkili, yazıçı Aqil Abbas:*** "Şuşada tarixi abidələrin bərpası, yaşayış evlərinintikintisi sürətlənəcək və inanıram ki, bu "Şuşa ili"ndəbu müqəddəs şəhərimizin sakinləri öz dogma yurd-yuvalarına dönməyə başlayacaqlar. Şuşa turizmmərkəzinə çevriləcək, əvvəlki ab-havası qayıdacaq, bundan başqa Şuşa şəhərinin salınmasının 270 illiyi eləŞuşanın özündə möhtəşəm şəkildə qeyd ediləcək və bumərasimdə Türk dünyasının, eləcə də Avropanın, dünyanın başqa ölkələrindən nümayəndələr iştikakedəcək. "Xarı



bülbül" festivalı, "Vaqif poeziyagünləri", Yazıçılar ittifaqının qurultayı keçiriləcək, artıq məlumdur ki, bu yaxınlarda Şuşaya avtobusrelsləri açılacaq. Yəni Şuşa 30 il bundan əvvəlkiŞuşaya çevriləcək".

***QAT-ın sədri Akif Nağı:*** "Qarabağın işğaldan azad olunması prosesində Şuşa önsırada dayandı. Ən vacib məntəqə kimi həmAzərbaycanda, həm də dünyada qəbul olundu. Biz illərdir belə bir şüar səsləndirirdik ki, Qarabağ azadolunsun, Şuşa da paytaxt olsun. O vaxt bizə deyirdilərki, Şuşa necə paytaxt ola bilər? Coğrafi ərazisinə görəgediş-gəliş rolu oynaya bilməz. Amma biz arzumuzudilə gətirirdik. Bəziləri deyirdilər ki, Qarabağınpaytaxtı olsun, bizsə ümumi Azərbaycanı nəzərdətuturduq. Hər şey gəldi yerini aldı, Şuşa Azərbaycanınikinci paytaxtı - Mədəniyyə paytaxtı elan olundu. Yənibu, Şuşanın əhəmiyyətini göstərir.




Şuşa 44 günlükmüharibə zamanı da gündəmdə idi. Hər kəs düşünürdüki, görəsən, Şuşa azad olunacaq, yoxsa yox? Hər kəstəbii ki, çətinliyi də başa düşürdü, amma həmAzərbaycanın siyasi rəhbərliyi, həm ordusu elə biraddım atdılar ki, dünya özü də gözləmədiyi bir hadisəilə üzləşdi. Eləcə də müharibədən sonra hamı Şuşaüçün gedən proseslərdə iştirak etməyi özünə borc bilir, şərəf bilir.

Nəhayət ki, bu şərəf mənə də qismət oldu, 2021-ci ildekabrın 29-da Şuşaya gedə bildim. Nə qədər desən də, nə ilə istəsən müqayisə etsən də. Şuşa heç nə ilə müqayisə olunacaq bir yer deyil. Sözlə də ifadə etməkmümkün deyil ki, Şuşa insane necə bir təsir göstərir. Şuşanın dünyanın heç bir yerində olmayan aurası var. Orada hər şey tamam fərqlidir, torpağı da, suyu da, adiotu da.

Şuşa prezident İlham Əliyevin xüsusi diqqətindədir, onun imzaladığı sərəncamlar, Şuşaya daimi səfərətməsi bunun göstəricisidir. Yaxın 6 ay ərzində Şuşadaəsas tikililərin başa çatması nəzərdə tutulur. "Zəfəryolu" ilə paralel tunellərdən ibarət yeni yol da çəkilir.

Prezidentin də vurğuladığı kimi Şuşa Qarabağın, Azərbaycanın və dünyanın gözünə çevriləcək.

Hesab edirəm ki, bu ilin "Şuşa ili" elan olunması çoxmüsbət bir hadisədir və biz də QAT olaraq o prosesdəiştirak edəcəyik.

***Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu:*** "Əslində 1998-ci il mayın 8-də Şuşa işğal olunandanindiyə kimi şəxsən mənim üçün hər il "Şuşa ili" olub.Yəni Şuşa heç vaxt yadımızdan çıxmayıb. O cümlədəndə xalqımızın böyük əksəriyyətinin düşüncəsində Şuşaolub. Ordumuzun qəhrəmanlığı, Ali Baş Komandanıncəsarəti, diplomatiyası sayəsində torpaqlarımız azadolundu. Şuşa azad olunandan sonra bizim üçün ikiqat"Şuşa ili" oldu. Təzəlikcə prezident bu ili "Şuşa ili" elan edib, çox sevindirici haldır. Yəni bunun siyasi-ictimai tərəfi də var. Azərbaycan-Türkiyə arasındaŞuşa bəyannaməsi



Şuşada imzalandı, o zaman birmesaj verdi. Yeni ili, doğum günü ərəfəsində ailəsiləŞuşaya getdi, o zaman bir mesaj verdi. Həmcəmiyyətə, həm də dünyaya. "Şuşa ili" də növbəti vəgözəl bir mesajdı. Düşünürəm ki, Qarabağ probleminin həllində müsbət rol oynayacaq, Qarabağın hər yerində- Xankəndidə, Xocalıda bayrağımız dalğalanacaq. Şuşahəmrəylik deməkdir, Şuşa hamımızı birləşdirəndəyərdir.

Və quruculuq, yenidənqurma işləri Şuşada vüsət alacaq".

**Eminquey**

## Erməni "sapyorları" Qarabağda mina axtarışında: "Dqr" niyə "diri" qalır?

**Dekabrın 20-25-də Əsgəran, Martuni və Mərtakert rayonlarında minalardan təmizləmə işləri aparılıb.**

Adalet.az Sputnik Armenia saytına istinadən xəbər verir ki, bu məlumatı qondarma "dqr"in ərazi idarəetmə və infrastruktur nazirliyinin mətbuat xidməti yayıb

Sayt xəbər verir ki, erməni istehkamçıları Dağlıq Qarabağda 388 mərmi və döyüş sursatı aşkar edərək məhv ediblər.

Ümumilikdə, 2020-ci ilin sonlarından etibarən aparılan işlər zamanı 867417 mərmi və döyüş sursatı aşkar edilib,onlardan 859 029 ədədi məhv edilib.

***P.S. Əgər Qarabağın sahibi Azərbaycan dövlətidirsə, minaları da məhz Azərbaycan tərəfi axtarmalı, zərərsizləşdirməlidir.***

***Nə qədər ki, qondarma "dqr" və onun cinayətkar və oyuncaq başçısı Arayik Artyunyan haqqında ölçü götürülməyəcək, o vaxta qədər də belə qızışdırıcı xəbərlər, qarşıdurmaya təhrik edən məlumatlar olacaq.***

**Əntiqə Rəşid**



*Səxavət Məmməd*

# Niyə görə casusluqla bağlı indi yazırsan?

**Casusluqla bağlı iki yazı yazandan sonra mənə belə bir ritorik sual ünvanlandı: Niyə görə casusluqla bağlı indi yazırsan? Sanki hansısa bir prosesə mane oluram. Hətta sifariş aldığımı iddia edənlər də var. Hər kəsin fikrinə hörmətlə yanaşaraq bildirmək istəyirəm ki, hələ "Tərtər işi"indən təxminən 2 ay əvvəl bir yazı yazmışdım və həmin yazıdan bir hissəni sosial şəbəkədə paylaşmışdım.**

Oxuya bilərsiniz: "Üstündən keçməyəcəyimiz bir məsələ var. Necə oldu ki, əsgərlərimizin cəsədi ermənilərin əlində olmadan, o istiqamətdə əsir düşənimiz olmadan ermənilər şəhidlərimizin adlarını, vəzifələrini hadisədən az sonra yayımladılar? DTX-nin ilk işi orduda "təmizlik" işləri olmalıdır. Düzdür, "təmizlik" var, ancaq kökünü qaşımaq lazımdır".

Yazı 27 fevral 2017-ci ildə yazılıb. Ola bilsin, hansısa "dahi" ortaya iddia atacaq ki, "Tərtər işi"nin nə vaxt başlayacağından xəbərdar olmuşam. Gülüb keçirəm.

Bunları yazarkən Azərbaycanda nəinki belə bir iddia ortaya atan olmuşdu, heç buna ürək edən də tapılmırdı. Sual oluna bilər, bunları nəyə əsaslanıb yazmışdım. 2017-ci ilin fevral ayının 25-də Azərbaycan Ordusunun 5 kəşfiyyatçısı şəhid oldu. Həmin hadisədən saatlar sonra erməni tərəfi onlar barədə bütün informasiyanı açıqladı. Daha sonra isə qarşı tərəf kəşfiyyatçıların şəhid olması ilə bağlı videonu təqdim etdi.

Həmin videonu ürək ağrısı ilə izləyəndən sonra peşəkarcasına baxanda bir məsələ insanı düşündürməyə bilmirdi: Sanki gediləcək ərazi əvvəlcədən bilinir və kameralar da həmin istiqamətə fokuslanıb. Burada erməni tərəfi Azərbaycan cəmiyyətini sarsıtmaq üçün iş görsə də, əslində, bilməyərəkdən mesaj verirdi ki, içəridə "adamlarımız" var. Təkcə videolar və adların açıqlanmasından bu fikrə düşmüşdüm? Qətiyyən! 2016-cı ilin aprel döyüşlərindən dərhal sonra zabitlərlə söhbətləşmək imkanımız oldu. Həmin vaxt zabitlərin bir çoxu deyirdi ki, bəzən baş verən şeylər anormal gəlir, ancaq əlimizdə heç bir fakt yoxdur.

Artıq ordunun içərisində də şübhələnlər var idi. Sadəcə casusluq məsələsini aşkar etmək o qədər də asan bir şey olmadığı üçün hər kəs şübhələnməkdən o yana keçə bilmirdi.

2016-cı ilin aprel döyüşləri zamanı yaralı bir erməni zabiti Azərbaycan Ordusunun zabitlərinə bildirir ki, onu buraxma müqabilində gedib həmin əraziyə yaxın rayondakı evlərin birindən 10 min dollar pul götürsünlər. Bu barədə, təbii ki, xüsusi xidmət orqanlarına məlumat verilir. Ünvan yoxlanılan zaman məlum olur ki, ev sahibi bir gün əvvəl Rusiyaya qaçıb. Təbii ki, bu hadisə şübhələri bir qədər də artırmışdı.

Digər bir fakt. Casusluqla bağlı bir faktın üstü açılır. Dindirmə prosesi zamanı əsgərlərdən biri diqqət çəkir. Belə ki, hərbi polisin rəisi əsgərin yaşının çox olmasını bilir, ancaq ali təhslilli olmaması əlavə suallar verilməsinə səbəb olur.

Sorğu-sual zamanı həmin əsgər etiraf edir ki, Rusiyada ermənilər onu ələ alıb, ona əsgərliyə getmək lazım olduğu deyilib. Sonra hansı istiqamət lazımdırsa, ora saldırmaq üçün pul ödənilir və "gözlə, biz sənə bildirəndə, dediyimizə əməl edərsən" tapşırığı verilib. Həmin şəxs bütün bunları məhkəmədə də etiraf edib.

**Əslində, bu, casusluqdan daha çox ritorik suallara cavab yazısı idi.**

*Mehman CAVADOĞLU*

# Qazaxıstan dilemması

## *və yaxud dövlət nədən talançı və qarətçilərlə bacara bilmir?*

**Yeni ilin ilk günlərindən maye qazın qiymətində baş vermiş kəskin artıma görə Qazaxıstanda başlayan etirazlar aksiyaları artıq məcrasından çıxıb. Hökumət elə ilk gündən aksiyaçıların tələblərini yerinə yetirmək üçün ciddi addımlar atsa da prosesi cilovlamaq mümkün olmayıb, qərb rayonlarından başlayan etirazlar az müddət ərzində bütün ölkəni bürüyüb. Ən pisi də budu ki, hadisələr dinc məcrasından çıxaraq küçə döyüşləri xarakteri alıb. Artıq hadisələrin episentrindən gələn informasiyalarda yaralanan, ağır-yüngül xəsarət alanlarla yanaşı həlak olanlar barədə də məlumatlar yer almağa başlayıb. Özü də hər iki tərəfdən. Bir sözlə, mitinq və nümayişlər küçə döyüşləri mərhələsinə qədəm qoyub.**

Əslində, hakimiyyətin məsələyə ilk gündən ciddi yanaşması, mitinqçilərin tələblərinin yerinə yetirilməsi istiqamətində real və konkret addımlar atması hadisələrin tezliklə normal məcraya dönəcəyinə şübhə yeri qoymurdu. Maye qazın qiyməti iki dəfədən çox endirildi, qiymət artımında özfəaliyyətə yol vermiş qaz emalı zavodunun direktoru işdən qovularaq həbs edildi, nəhayət, ölkənin baş naziri istefaya göndərildi. Ancaq hakimiyyət güzəştə getdikcə etirazçılar da iştahlarını çoxaldaraq daha artığını tələb edir, üstəlik, tələblərini siyasiləşdirməyə başlayırlar. Siyasi tələblər Manqistaudan yox, onlara dəstək verən digər regionlardan, xüsusilə Alımatıdan gəlir.

İlk siyasi tələb elbaşı Nursultan Nazarbayevə qarşı yönəlir: "Şal, get (qoca, get). Hazırda Nazarbayevin daha çox mənəvi atribut olan "elbaşı" titulundan başqa daşıdığı olan-qalan görəvi təhlükəsizlik şurasının katibi postudu ki, elə "Şal, get" tələbi səslənən günü həmin postun da başını buraxdı və prezident Kasım-Jomart Tokayev bu məsul vəzifənin ağırlığını da öz üzərinə götürdüyünü elan elədi. Amma bundan sonra da, yəni, mitinqlərdə irəli sürülən hələlik bu birinci və sonuncu siyasi tələb də yerinə yetirildikdən sonra hadisələr nəinki səngimək bilmir, əksinə artan xətlə inkişaf eləyir. Hərçənd, hazırda proses elə mərhələyə qədəm qoyub ki, artıq onu nə mitinq, nə də heç etiraz aksiyası adlandırmaq belə doğru deyil. İndi Qazaxıstanın, ilk növbədəsə Almatının küçələri sözün həqiqi mənasında terrorçularla hökumət qüvvələri arasında qanlı savaş meydanına çevrilib.

Əkbəttə, bunu kütlə şüurunun stixyasından doğan facəvi bir gerçəklik də adlandırmaq olardı. Kütlə şüuru mücərrəd, heç bir qəlibə sığmayan, istənilən paradiqma və hətta banal məntiqin fövqündə duran psixoloji fenomendi. İndi bu qonşu və qardaş ölkədə baş verənləri də asanlıqla həmin fenomenin ayağına yazmaq, bunun nə birinci, nə də sonuncu belə hadisə olmadığını düşünüb təskinlik tapmaq olardı. Amma...

Son bir neçə ildə Rusiyanın millətçi və özlərini "derjavnik" adlandıran ekspertləri, demək olar ki, hər fürsətdə Qazaxıstanın bostanına daş atırlar. Gah bu ölkədə pantürkçü əhvali-ruhiyyənin güclənməsi, gah rusların sıxışdırılması, gah da şimal bölgəsindəki bəzi ərazilərin Rusiyaya birləşdirilməsi barədə çağırışlar edir, rəsmi Astananın ünvanına hədə-qorxuyla dolu ittihamlar səsəndirirlər. Rusiyanın baş "derjavnik"inin Kremlin bir nömrəli kabinetində oturduğunu nəzərə alsaq, bu ittihamların hardan qaynaqlandığını təxmin eləmək çətin deyil.

Qazaxıstan müstəqil dövlətə çevrildikdən sonra nəinki Rusiyaya dirsək göstərməyib, əksinə öz siyasətində Moskva amilinə bəzən özünü qınaq obyektinə çevriəcək səviyyədə önəm verib. Bu siyasət təkcə ölkədəki çoxsaylı, son məlumatlara görə 4 milyona yaxın rus icmasının mövcudluğuna yox, həm də tarixi, geopolitik gerçəkliklərə söykənirdi və kifayət qədər praqmatik yanaşmaydı. Hətta yuxarıda da dediyimiz kimi son illər rəsmi Astana tez-tez səslənən ərazi iddialarına təmkinli reaksiya göstərir, vaxtilə yarıxoş, yarızor ondan qopardılan hələ Omskını, Çelyabinskini və b. demirik, heç halalca paytaxtları Orenburqun taeyini belə dilinə gətirmirdi.

Bütün banlara baxmayaraq hazırda Qazaxıstanı çalxalayan hadisələrdə Moskvanın barmağının olması faktı açıq-aşkar görünür və buna heç kim şübhə etmir. Söhbət, sadəcə, həmin barmağın hansı səviyyədə işləməsindədir. Yəni, hər şey lap başlanğıcdan Rusiya kəşfiyyatının əliylə hazırlanıb, yoxsa xüsusi xidmət orqanları, sadəcə, əllərinə göydən zənbillə düşmüş şox münbit şəraitdən ustalıqla yararlanıb? Hələlik cavabı müşkül sual budur. Çünki arada nə qədər yaxın münasibət olsa da, süzeren-vassal münasibətlərinin əlamətləri adi gözlə belə görünsə də, Astananın son vaxtlar "türk zolağı" boyu sərgilədiyi fəallıq Kremli qıcıqlandırmaya bilməz. Hərçənd, bu fəallığın dərəcəsini hazırkı Qazaxıstan hakimiyyətini devirmək üçün yetərli arqument saymaq mümkün deyil.

Artıq 2022-ci il Qazaxıstan hadisələri kimi tarixə düşmüş iğtişaşlarda rus barmağının izləri gec-tec bütün detallarıyla üzə çıxacaq. Məsələ bunda deyil, məsələ Qazaxıstan hakimiyyətinin həmin hadisələrin qarşısını almaqda göstərdiyi acizlikdi. 30 ildir ki, müstəqil ölkədir, özü də keçmiş sovet respublikalarının arasında tək ərazisinə görə yox, həm də sərvətinə görə ən zəngin ölkədir. Hakimiyyətdən narazı qüvvələr, müxalif partiyalar olsa da, həlledici güc sahibi deyillər. Söhbət həqiqətən talançılardan və quldurlardan gedirsə hakimiyyət nədən bu iğtişaşları öz gücüylə yatırda bilmir?! Yox, əgər meydanlara axışanlar həqiqətən xalqdırsa, onun ayrı-ayrı sosial zümrələrinin təmsilçiləridirsə, bir sözlə, dinc sakinlərdisə bəs onda dialoq harda qaldı? Axı, ölkənin siyasi mübarizə meydanına çevrilməsi onun savaş meydanına çevrilməsindən daha sərfəli variant idi.

Bu baxımdan Qazaxıstan və qonşu ölkələrin mühacir müxalifətçilərinin qəbul elədiyi bəyanat çox önəmlidi. Qırğızıstanın "İslahat", Türkmənistanın Respublika, Özbəkistanın Birlik və Qazaxıstan müxalifəti Xarici bürosunun yaydıqları birgə bəyanatda hadisələrə başqa rakursdan yanaşılır, hər şey hakimiyyətin yeritdiyi məqsədyönlü siyasətin nəticəsi kimi qiymətləndirilir və ölkəni yenidən Rusiyanın cənginə atmaq əvəzinə hakimiyyət- xalq dialoqunun vacibliyi önə çəkilir. Amma görünən budur ki, hakimiyyət tamam başqa kurs seçib. Prezident Kasım-Jomart Tokayev KTMT (oxu: Rusiya) qoşunlarını ölkəyə dəvət edib. Bu, təkcə Qazaxıstan hakimiyyətinin acizliyinin etirafı deyil, tarix və gələcək nəsillər qarşısındakı məsuliyyətidir. Çünki rus qoşunlarının iğtişaşları yatırtdıqdan sonra oranı tərk etməyəcəyi, lazım gəlsə hakimiyyətə də əl gəzdirəcəyi heç kim üçün sirr deyil. Moskva Tokayevsiz keçinəcək, Moskva Qazaxıstansız keçinə bilmir. Və 90-cı illərdə tarixin şansı olaraq ələ düşmüş müstəqilliyini yavaş-yavaş birdəfəlik itirəcək. Kremlin bugünkü sahibi nəinki SSRİ-nin, hətta keçmiş Varşava müqaviləsi təşkilatının xiffətini çəkdiyini , gücü çatdıqca onları bir-bir geri qaytarmağa çalışır - Ukrayna... Ermənistan... Belarus... Qazaxıstan... Görəsən, növbədə Qazaxıstandan sonra kimin növbəsi gəlir.

***P.S.** Artıq rus teleqram kanalları Kremlin "asayiş yaratmaq" şərtlərini dünəndən tirajlamağa başlayıblar: rus dilinə dövlət dili statusu verilməsi, Krımın tanınması, kirill əlifbasının qaytarılması və s. bir-birindən daha ağır, daha biabırçı şərtlər irəli sürürlər. Hətta bəzi bədxahları onu "baş tutmamış dövlət epiteti ilə" təhqir eləməkdən də çəkinmirlər ki, bütün bunları oxuduqca xoruzun quyruğu daha aydın görünməyə başlayır.*

**05.01.2022**



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Çörək haqqı

...Başqa millətləri deyə bilmərik, amma bizim xalq çörəyi Quranla bərabər tutur. Qurana and içəndə çörəyə də and içir. Və deyir: "Çörək haqqı". Bu, həm də o deməkdir ki, biz çörəyi Allah qədər, Quran qədər çox istəyirik. Hətta əlimizdən bir tikə, bir parça çörək yerə düşəndə onu götürüb öpür, gözümüz üstə qoyur və əzizləyirik. Çünki bilirik ki, çörək nə deməkdir. Xüsusən də sadə insanlar çörəyin nə olduğunu və insanın həyatında hansı rollar oynadığını hamıdan yaxşı bilir...

...Son bir neçə gündə dünyanın hər yerində olduğu kimi, bizim məmləkətdə də un və çörək bahalaşıb. Deyirlər ki, bu, qlobal problemdir. Bunu başa düşmək olur. Amma onu başa düşmək olmur ki, həmişə bu cür problemlər yaşananda kiçik və zəif ölkələr aclıqdan daha çox əziyyət çəkirlər. Taxıl ixracısı olan Rusiya, Qazaxıstan, ABŞ, Kanada yüz oyundan çıxır ki, taxılın qiymətini, buğdanın qiymətini qaldırsınlar və elə qaldırırlar da. Təbii ki, bunun da dalğası ilk növbədə zəif ölkələri daha güclü tutur. Deyilənlərə görə, Çin dünya taxıl ehtiyatının 50 faizindən çoxunu alıb yığıb öz anbarlarına. Bunu da ona görə edib ki, digər ölkələrə təzyiqlər olunsun. Bunlar alayı söhbətlərdir.

...Amma bizi düşündürən odur ki, pandemiyanın yaratdığı gərginlikdən və stresdən sonra dünyanı idarə edən qüvvələr indi də insanları çörəklə imtahana çəkirlər. Dünyaya bel bağlayıb bu aclıqdan çıxmaq o qədər də asan deyil. Ona görə də hər bir ölkə öz daxili imkanları hesabına bu problemləri yoluna qoymalıdır. Bizim məmləkət ərzaq buğdasını Rusiyadan və Qazaxıstandan alır. Taxılın qiyməti isə ötən ilə nisbətən 50 faiz bahalaşıb. Yəni, Rusiya istehsal etdiyi taxılı bu gün dünya bazarına 350 dollardan baha qiymətinə çıxarır. Əlbəttə, belə bir vəziyyətdə çıxış yolu tapmaq, arayıb-axtarmaq o qədər də asan deyil.

Deyilənlərə görə, ölkəmzdə 3-4 aylıq taxıl ehtiyatı var. Amma hökumət və Taxıl Fondu gərək bu vəziyyəti əvvəlcədən hiss edib zamanında ucuz qiymətə ərzaq buğdası alaydı. Yəni, ən azından ölkəmizin birillik taxıl fondu olmalı idi. Amma deyəsən, taxılımız o qədər də çox deyil. Təbii ki, bu situasiyadan çıxmaq üçün hökumətin və dövlətin öz proqramı olmalıdır. Yəni, ola bilər ki, taxılın qiyməti indikindən də baha olsun. Bax, belə bir durumda biz daxili imkanlar hesabına taxıl ehtiyatlarımızı artırmalıyıq.

Mütəxəssislərin dediyinə görə, ölkəmiz taxılın 50 faizə yaxını özü istehsal edir. Qalan ərzaq buğdasını isə xaricdən alır. Deməli, burdan belə bir məntiqi nəticə çıxır ki, ölkəmizdə taxıl istehsalını artırmaq lazımdır. Heç uzağa getməyək, işğaldan azad olunmuş Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının ərazilərində demiya torpaqlarında taxıl əkmək olar. Onu da bildirirlər ki, artıq bu rayonların minalardan təmizlənmiş yerlərində yüzlərlə hektar sahədə taxıl əkilib. Min şükür! Eyni zamanda Bərdədə, Beyləqanda, Saatlıda, Sabirabadda, Biləsuvarda, Cəlilabadda pambıq sahələri üçün ayrılmış yerlərdə indi taxıl əkmək olar. Çünki hələ gec deyil. Əgər yerli istehsalla ölkəmizin taxıla ehtiyacının 80 faizi həll olunarsa, xaricdən o 20 faizi almaq bir o qədər də vəsait tələb etməz.

Artıq ölkəmizdə 50 kq-lıq unun bir kisəsini bir neçə gün bundan əvvəl 28 manata satırdılarsa, indi 38 manata satışa çıxarırlar. Sahibkarlar da deyir, qiymət artımı bizlik deyil. Biz topdansatış mərkəzlərindən baha qiymətə alırıq, üstünə də qəpik-quruş qoyub satırıq. İndi nə çörək zavodlarını, nə də un satışı ilə məşğul olan sahibkarları qınamalı deyil. Çünki qiymətləri onlar yox, bazar müəyyənləşdirib. Dövlətimiz milli valyutamızın dəyərini necə tənzimləyirsə, dotasiya ilə də taxılın və unun qiymətini sabit saxlamalıdır. Amma hələ ki, mümkün deyil. Yəni, əvvəllər 50 qəpiyə satılan çörək indi 70 qəpiyə satışa çıxarılır. Bu isə o deməkdir ki, aztəminatlı ailələr və təqaüdçülər bu bahalaşmadan çox əziyyət çəkəcəklər. Elə ailə var ki, bir gündə 6-7 çörək alır. Və həmin ailə indi hər gün 4 manat, 5 manata yaxın çörəyə pul verməlidirlər. Bəs bu yazıq insanlar o pulu hardan alsınlar?! Bəzən süni bahalaşma da yaradılır. Bax, o süni bahalaşmanın da qarşısı İqtisadiyyat Nazirliyi və hüquq-mühafizə orqanları tərəfindən alınmalıdır. Əhalini nə ilə sınağa çəksən, dözə bilər. Amma çörəklə sınağa çəkmək çox ağır imtahandır. Ən azından ona görə ki, biz başqa qidalarsız bir gün, bir neçə gün yaşaya bilərik. Ancaq çörəksiz bir gün də yaşamaq olmur. Çünki öz evində el dilində demiş olsaq, yavanlığı olmayan adam elə soğan çörəklə də dolana bilər. Lakin çörək bahalaşandan sonra çox çətin anlar yaşanacaq.

Yazımızın əvvəlində qeyd etdik ki, biz çörəyə Allah qədər, Quran qədər müqəddəs varlıq kimi yanaşırıq. Kim ki, dünyada insanları çörəklə sınağa çəkib, aclıq yaratmaq istəyirsə, yediyimiz çörək haqqı bu çörək onlara qənim olacaq. Elə fikirləşirlər ki, insanları yalnız və yalnız qapaz altından saxlasınlar, bir tikə çörəyə möhtac etsinlər. Amma düşünmürlər ki, milləti və dünyanı çörəklə sınağa çəkənlərin başına Allah-təala elə bir qapaz endirər ki, düz qiyamətə qədər bir də ayağa qalxa bilməz. Çörəklə zarafat eləyəni Allah da sevməz...

## Koronaya ən yüksək həftəlik yoluxma qeydə alındı

**Koronavirus pandemiyası başlayandan bəri dünya üzrə növbəti ən yüksək həftəlik yoluxma halı qeydə alınıb və həftəlik yoluxmaların sayı 9,5 milyona çatıb.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) məlumat yayıb. Məlumatda bildirilir ki, 27 dekabr 2021 - 2 yanvar 2022-ci ili əhatə edən həftə ərzində yoluxmalar öncəki həftə ilə müqayisədə 71 faiz artıb və real göstəricilər rəsmi statistikadan daha yüksək ola bilər. Yeni il günlərində isə dünya üzrə koronavirusla əlaqədar ölənlərin sayı 41 min nəfər olub.

**MEHRİBAN**

# Tıxaclar aradan qaldırılır

**Heç kimə sirr deyil ki, Bakının müxtəlif küçə və prospektlərində tez-tez tıxaclar yaranır və bu tıxaclara da biz səhər və axşam saatlarında rast gəlirik. Yaranmış tıxaclar zamanı sürücülər və hərəkət iştirakçıları çoxlu vaxt itirir, əsəbləşir və həm də normadan artıq yanacaq yandırırlar. Təbii ki, bu dediyimiz hadisələrin tez-tez baş verməsi hər bir insanı və o cümlədən sürücüləri daha çox narahat edir.**

Tıxacların qarşısının alınmasında Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşları davamlı olaraq qabaqlayıcı tədbirlər görürlər. Onlar hətta hava şəraitinin mürəkkəb olmasına baxmayaraq, tıxacların yarandığı bütün küçə və prospektlərdə səhər və axşam saatlarında hərəkətin təhlükəsizliyini tənzimləyirlər. Habelə, yağışın möhkəm yağdığı və işıqforların nasaz vəziyyətdə olduğu anlarda belə yol polisi öz vəzifə borcunu yerinə yetirməyə çalışır. Əlbəttə, hərəkətin təhlükəsizliyinin təmin olunmasında tək yol polisi deyil, o cümlədən sürücülər və piyadalar da məsuliyyət daşıyırlar. Əgər hər hansı bir hərəkət iştirakçısı qaydanı pozubsa, bu, o deməkdir ki, həmin vətəndaş qəzalara münbit şərait yaradır. Ona görə də bütün hərəkət iştirakçıları yol hərəkət qaydalarına ciddi əməl etməlidirlər.



Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin 5-ci taqımının əməkdaşları mütəmadi olaraq "20 Yanvar", "Şamaxınka" istiqamətlərində tez-tez yaranan tıxacların aradan qaldırılması üçün ciddi tədbirlər görürlər. Belə ki, onlar "20 Yanvar" dairəsindəki avtobus dayanacaqlarında həmin ərazini zəbt edən, taksi fəaliyyəti ilə məşğul olan sürücülərlə maarifləndirici söhbətlər edir, onlara bir daha anladırlar ki, avtobus dayanacaqlarında avtomobillərin saxlanılması problemlər yaradır və ictimai nəqliyyatın fəaliyyətinə maneçilik törədir. Təbii ki, o sürücülər ki, maarifləndirmə yolu ilə hər şeyi anlayırlar, başa düşürlər, onlara yol polisi hörmətlə yanaşır. Amma yol hərəkəti qaydasını dəfələrlə pozaraq avtobus dayanacaqlarına girib ictimai nəqliyyata maneçilik törədən bəzi sürücülər barəsində inzibati protokollar tərtib edilir.

Həmin ərazilərdə 5-ci taqımın əməkdaşları "Dayanma" və "Durma" qaydalarını pozan sürücülərə qarşı da ciddi mübarizə aparırlar. Belə ki, parklanma qaydasını pozan və eyni zamanda "Dayanma" və "Durma" qaydalarını pozan sürücülər də diqqətdən kənarda qalmırlar. Yəni onlarla da öncədən səmimi söhbətlər olunur, bütün məsələlər diqqətlərinə çatdırılır və hər hərəkət iştirakçısına hüquqları izah olunur. Təbii ki, bu cür sivil bir formada təbliğat işinin aparılması əksər sürücülərin ürəyincədir. Amma bayaq qeyd etdiyimiz kimi, elə məqamlar da var ki, gərək onda qanunun sərt üzündən istifadə edəsən.



Yol Patrul Xidməti alayının 5-ci taqımının əməkdaşları "20 Yanvar" və "Şamaxınka" istiqamətində yerüstü və yeraltı keçiddən istifadə etməyən piyadalara qarşı da lazımi tədbirlər gerçəkləşdirilir. Bu barədə bizə məlumat verən 5-ci taqımın komandiri, polis kapitanı Nurlan Əliyev bildirir ki, biz hər gün hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün bu istiqamətlərdə əlavə naryadlar göndərir, təyin olunmuş yerdən keçməyən piyadalarla söhbətlər edilir, onları gözləyən təhlükə diqqətlərinə çatdırılır. Çünki heç kimə sirr deyil ki, baş verən yol-nəqliyyat hadisələrinin böyük bir hissəsi piyadaların ölümü və xəsarət alması ilə nəticələnir. Bu isə istər-istəməz bizi narahat etməyə bilməz. Belə ki, hər gün növbəni qəbul edəndə rəhbərlik də bizim qarşımızda mühüm vəzifə kimi onu da müəyyənləşdirir ki, piyadaların təhlükəsizliyi ilə bağlı davamlı olaraq tədbirlər həyata keçirək və biz də bu tədbirlərə hər gün birmənalı olaraq gerçəkləşdiririk. Ona görə də bir daha hərəkət iştirakçılarından və o cümlədən piyadalardan xahiş edirik ki, yolu keçərkən diqqətli olsunlar, yerüstü və yeraltı keçidlərdən istifadə etsinlər. Çünki bu, hər hansı piyadanı mövcud təhlükədən xilas edən yeganə çıxış yoludur.

**Göründüyü kimi, Yol Patrul Xidməti Alayının 5-ci tağımının əməkdaşları yuxarıda adını çəkdiyimiz küçə və prospektlərdə hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün sutkanın 24 saatı ərzində bütün ciddi addımları atmağı bacarır. Bu isə o deməkdir ki, həmin istiqamətlərdə tıxacların aradan qaldırılması və eləcə də digər mövcud problemlər zamanda öz həllini tapır. Bircə o qalır ki, sürücülər və piyadalar qaydalara əməl etsinlər, öz təhlükəsizliyini qorusunlar.**

**Emil FAİQOĞLU**

# Ordunu ləkələmək istəyənlərin Polad Həşimov "HƏMLƏ"Sİ: Çirkin savaşa rəvac verənlər kimlərdir?



**Dünya azərbaycanlılarının həmrəyliyi günündən bir gün sonra və Polad Həşimovun ad günündən bir gün əvvəl...**

**31 dekabrı Həmrəylik günü kimi qeyd edən azərbaycanlılar cəmi bir gün sonra bir neçə yerə böləndü. Şəhid General-mayor Polad Həşimovun anasının açıqlaması ölkədə həmrəylikdən əsər-əlamətin olmadığını ortaya qoydu.**

Açıqlamada konkret ittihamlar var. Bu ittihamlarla yanaşı, digər ittihamlar da öz yerini aldı.

### "Polad Həşimov vəzifə istəyirmiş"

Polad Həşimovu tanıyanlar yaxşı bilir ki, onun vəzifə arzusu heç vaxt olmayıb. General-polkovnik Kərim Vəliyevin Polad Həşimovu vəzifəyə görə güdaza verməsinə gəldikdə isə bu, konkret absurd yanaşmadır. Polad Həşimovu tanıyanlar yaxşı bilir ki, Kərim Vəliyevlə onun arasındakı münasibət əmi-bala münasibəti olub.

Polad Həşimovun şəhid olması xəbərini ictimaiyyətə rəsmi olaraq Kərim Vəliyev açıqladı və gözünün dolduğunu hər kəs görmüşdü.

Ümumiyyətlə, Polad Həşimov nadir rastlanan adamlardan idi ki, şəhid xəbərinə üzülməkdən daha çox insanlar ona əsəbiləşmişdi. Çünki tanıyanlar onu qorumaq istəyirdi.

Səmayə xanım şəhid anasıdır. Oğul itirib. Emosional, eşitdiklərinin gerçək olduğuna inana bilər. Bəs məntiq, gerçəklər? Nə oldu?! Polad Həşimov şəhid olanda "Onu güdaza Nəcməddin Sadıkov verdi" deyənlər indi Kərim Vəliyevi ittiham edirlər? Baş Qərargah rəisi Polad Həşimov gələcəkmiş. Həqiqətən buna inanırsınız? Azərbaycan kimi ölkələrdə Baş Qərargah rəisi vəzifəsinə təyinat o qədər də adi, sıradan, sadə bir şey deyil. Biz azərbaycanlılar xəritəyə baxanda bəzi ölkələri qonşu görürük. Ancaq bəzi ölkələr isə Azərbaycanı təhlükəsizlik zolağı, bufer dövlət kimi görür. Bu, təkcə Azərbaycan üçün keçərli deyil. Rusiyanın bütün qonşuları bu aqibəti yaşayır. Həm də cənubumuzda İran kimi dövlət var. Yəni, Azərbaycan Silahlı Qüvvələrinə Baş Qərargah rəisi təyinatı çox götür-qoylardan sonra baş verir. Ola bilsin, kimsə sual verəcək ki, layiq deyildi? Bu məsələnin layiqliklə heç bir əlaqəsi yoxdur.

Müharibənin aktiv fazası bitdi. Öncə hərbçilərin maaşları kəsildi. Bu oldu ilk zərbə Ardınca medal və təltiflərlə bağlı problem yaşandı. "Tərtər işi" hərbi qələbədən daha çox müzakirə olunmağa başladı. Əlillik hələ də davam edən problemdir.



Ordunun üzərində elə bir əl var ki, sanki ləkələnməyəcək kiminsə qalmayacağına söz verib. Bir müddət əvvəl Hikmət Mirzəyev hədəf seçilmişdi. Açığı "oğurluq" məsələsi "tutmadığı" üçün yeni versiya üzərində işlənildiyi açıq şəkildə hiss olunur.

Ardınca Polad Həşimovla bağlı məsələ gündəmə gəldi. Düşünürəm ki, bu planlı şəkildə həyata keçirilir. Hər kəs yaxşı bilir ki, Polad Həşimovun anasının səsləndirdiyi fikirlərə görə nə dövlət gedib onu sorğulayacaq, nə də cəmiyyət onun üzərinə gedəcək. Bu işin arxasındakılar ən hiyləgər tülkünü belə heyrətləndirəcək qədər hiyləgərdilər.

Polad Həşimov şəhid olsa da, onun başından qara buludlar heç əskik olmur. Bir ara Polad Həşimova Qasım Süleymani ordeni təqdim edildi. Təbii ki, bu da cəmiyyətdə birmənalı qarşılanmadı.

İndi də şəhidin anası skandal bir açıqlama verdi. Bəzi insanlar kor-koranə şəkildə "Şəhid anası deyirsə, düz deyir" kimi fikirlər səsləndirir. Şəhid anası, şəhid ailəsi ən ali hörmətə layiqdir, bu ayrı, ancaq onların səsləndirdiyi hər bir iddia da, "Quran" ayəsidir anlamına gəlmir və gəlməməlidir.

Həmin dövrdə Baş Qərargah rəisi Nəcməddin Sadıkov idi və heç kim də bilmirdi ki, o vəzifədən nə vaxt gedəcək və onun yerinə kim təyin olunacaq. Şəhid anasına informasiya verənlər hər şeyi hesablayıblar, bir tək bu gerçəkliyi nəzərə almayıblar.



**Açıq şəkildə görünür ki, daxildə savaş gedir. Azərbaycan ordusu müharibənin aktiv fazası bitdikdən sonra aldığı zərbələri heç savaşda almamışdı. Bu savaş durdurulmalıdır.**

**Səxavət Məmməd**

Emin Piri

# RUSİYA DAĞILACAQ...



`Rusiya dağılacaq` - uşaq bağçasında gənc tərbiyəçilərimizin əsas fikirlərindən biri idi. Şorba qarışıq bu sözü də bizə yedirirdilər. O zaman hələ SSRİ təzə dağılmışdı. Hər kəs yeni dünyanın qurulacağından bəhs edirdi.

`Rusiya bölünəcək` - məktəblərdə tarix müəllimlərimizin dərs arası gələcəkdə siyasətçi, diplomat olmaq istəyənlərlərlə söhbətinin əsas qayəsini təşkil edirdi.

`Rusiyanın yerində bir neçə dövlət yaranacaq` - tələbəliyimiz qərbdən gələn "narıncılar"ın sözlərilə keçdi. Şərqi yeni bürüyən narıncı hərəkatın anti-rus təbliğatına uymamışdıq desək, yalan olardı.

`Rusiyanı Ermənistandan çıxaracaqlar` - əsgərlik söhbətlərimizdən idi.

Bir az boşluğa düşən kimi hərbi söhbətlərimizin əsasını təşkil edirdi. Sanki Rusiya tam olaraq işğal olunmuş torpaqlarımızdan çıxacaq, bizdən üzr istəyəcək, biz isə silahlarımızı gül əvəzi tutub, siranuşların yanına gedəcəkdik.

`Nataşalar bizimçün yalvaracaq` - İşsüz-gücsüz qaqaşlar tində durub təsbeh çəkə-çəkə ağız suyu axıdaraq danışmadımı?!

`Ukrayna böhranı Rusiyanın sonunu gətirdi` - bir neçə media orqanını çıxmaqla mütəxəssislər, mediaholdinqlər hər gün manşetlərini ard-arda verir. Böyük bir kütlə bunun təsirinə düşür.

Amma...

...Rusiya dağılmadı - öncə keçmiş SSRİ-nin toxumlarını saxlamaq üçün MDB quruldu.

Rusiya bölünmədi - Putinin gəlişi ilə çeçen mücahidləri daxil olmaqla hər bir azadlıq istəyən qurum, silahlı dəstə və s. pərən-pərən salındı.

Rusiyanın yerində "Qərb" heç bir dövlət qura bilmədi - qərbyönümlü hakimiyyətlər devrildi, Rusiya meyillilər Ukrayna, Gürcüstan və digər ölkələrdə yenidən hakimiyyətə gətirildi. Putin qərbyönümlü iqtidarların olduğu ölkələrdə hakimiyyəti devirə bilməsə də, seperatizm yaratdı. Ömür boyunca bu "dövlətlər" ana vətənləri üçün "Damokl" qılıncı olaraq qalacaqlar.

Gürcüstan (Abxaziya, Osetiya) və Ukrayna(Krım) variantı bariz sübutdur.

Rusiya Ermənistandan çıxarılmadı - Əksinə, silah-sursat göndərilməsi və xüsusən əsas şirkətlərin Rusiyanın tabeçiliyinə keçməsi pik nöqtəyə çatdı.

Ukrayna böhranının Rusiyanın sonunumu gətirəcəyini düşünürsünüz? Qardaşım, Rusiya bu gün-sabah Antarktidanın ilhaq edilməsi üçün pinqvinlərə belə pasportu verib, referendum keçirsə, heç təəcüblənməyin.

Hə, bunu deyirdim axı, Rusiya dağılacaq...

01. 05. 2014

# Heykəlləri ucaldıldı, "şəhid" deyib sevdirməyə çalışdılar: Yanan "General Qasım Süleymani"...



**İranda general Qasım Süleymaninin heykəli yandırılıb. Adalet.az "Azad İran" "Telegram" kanalı istinadən xəbər verir ki, dünən axşamsaatlarında isə şəhərin gənc fəalları heykələ od vuraraq onu yandırıblar.**

Qeyd edək ki, 2020-ci il fevral ayında İranın Əhvaz şəhərində ABŞ silahlıları tərəfindən öldürülən İran İnqilab Keşikçiləri Korpusunun Qüds qanadının komandanı general Qasım Süleymaniyə heykəl qoyulmuşdu.



Noyabr ayında ölkədəki etirazların yatırılması və çox sayda insanın ölümünə görə SEPAH-ı günahlandıran fəallar isə heykəlin qoyulmasına qarşı çıxaraq, İslamdaheykəl qoyulmasına yaxşı baxılmadığını xatırlatmışdılar

Əhvaz bələdiyyə sədri isə açılışda bunun qürurverici hal olduğunu və şəhərdəki küçələrdən birinə də Süleymani ilə birgə öldürülən Əl Mühəndisin adının verildiyini demişdi. Məlumata görə, bundan öncə də Livanda İsraillə sərhəddə yerləşən, Hizbullahın nəzarətindəki Marun əl-Ras qəsəbəsində Süleymaniyə heykəl qoyulmuşdu. Buaddım sosial şəbəkələrdə livanlıları tərəfindən tənqid olunmuşdu. İsrail isə bunaİsrail Dövlətinin qurucusu Teodor Herzlın heykəli ilə cavab vermişdi.

***P.S.** İran əli müsəlman qanına batmış, minlərlə insanın qatili olmuş Qasım Süleymanini heykəllər ucaldaraq, "şəhid" deyib sevdirməyə çalışsa da,müsəlmanlar da, başqa dindən olanlar da əslində onun kim olduğunu anlayırlar.*

**Əntiqə Rəşid**

# Polkovnik: "Əmr gəldi ki, Almatıdakı etirazçıları qırın, biz də..."

*Redaksiyamızın qonağı , müsahibim ehtiyatda olan polkovnik Azay Kərimovdur. Son günlər Qazaxıstanda baş verən iğtişaş və olaylarla bağlı onun da fikirlərini Adalet.az-ın oxucularının diqqətinə çatdırmaq istəyirik.*

**- Cənab polkovnik, bildiyimiz qədəri ilə siz Ukraynada- Kiyev Ali Ümumqoşun Komandirlər Məktəbini bitirdikdən, hərbi təhsilinizi başa vurduqdan sonra təyinatla Qazaxıstanın Almatı şəhərinə göndərilmisiniz. Qazax xalqını həmin dövrdə gənc leytenant necə tanıdı ?**

- Onu qeyd etməyə ehtiyac yoxdur ki, qazaxlar Altay ailəsinə daxil olan türk xalqlarından biridir. Bunu hamı bilir. Dinləri İslamdır. Amma ilk təəssüratım o oldu ki, burada alkoqolizm və narkomaniya başqa respublikalara nisbətdə xeyli inkişaf etmişdi. Bu ürək açan olmasa da, qazaxların öz millətini sevməsi, milli atributlarına hörmətlə yanaşması da diqqətimdən yayınmadı. Ölkədə 100-dən artıq etnik qruplar və xalqlar yaşamasına baxmayaraq qazaxlar öz milli adət-ənənələrinə sadiq qalmışdılar. Ölkə əhalisi demək olar ki, dövlət dili qazax olmasına baxmayaraq rus dilində danışırdı. Bu da qazaxları incidirdi, onlarda qısqanclıq yaradırdı. Qazaxıstanda qazaxlardan sonra sayına görə çox olan ruslara qarşı antipatiyanı hiss etməmək də mümkün deyildi.

**- Bəlkə də elə bu səbəbdən Almatı, 1986-ci il də SSRİ ərazisində milli zəmində kütləvi iğtişaşların baş vediyi ilk nöqtə oldu? Dediyinizə görə, həmin il siz orda xidmətdəydiniz...**

- Nəinki orda xidmətdəydim, hətta birbaşa hadisələrin içərisindəydim. Kütləvi insan qırğınını da ilk dəfə 1986-cı ilin soyuq dekabrında Almatı hadisələri zamanı gördüm. O ilk milli zəmində olan ən böyük iğtişaş idi ki, sonrakı münaqişələrə də yol açdı. Səbəb kimi Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsindən Dinməhəmməd Kunayev çıxarıldı və ora birinci katib olaraq Moskva tərəfindən qeyri-qazax Gennadi Kolbinin təyin edildi. Bu Almatıda çox sərt qarşılandı və qazaxların heysiyyətinə toxundu. O vaxt dövlət meydanı kimi fəaliyyət göstərən Brejnev meydanı (hazırda Respublika Meydanı-red-Ə.R) ) bir gecədə etirazçılar tərəfindən tutuldu. Dekabrın 16-da başlanan mitinq 2 gün müddətində məcrasını dəyişərək siyasiləşdi və nəzarətdən çıxdı.Etirazçılar dinc insanlara hücum edir, rusları döyür, bəzən öldürürdülər. Ticarət, iaşə və digər obyektlərə hücumlar təşkil edirdilər, sərnişin-




ləri marşrutdan düşürür, avtobusu yandırırdılar. Küçəyə çıxmaq həyat üçün təhlükə yaradırdı.

**- Ordu hadisələrə necə müdaxilə etdi?**

- O vaxt SSRİ -nin müdafiə naziri Sergey Sokolov idi. Gecədən bizə yazılı "əmr" gəldi. Əmri milliyyətcə qazax olan general-leytenant S.Nurmaqambetov vermişdi. Əmrdə deyilirdi ki, döyüş silahından və patrondan istifadə edilməsinə tam icazə var, ... əmr verdilər ki, qırın. Almatı faciələrində kifayət qədər adam ölmüşdü. Mən Sovet ordusunun nəyə "qadir" olduğunu ilk dəfə orda gördüm. Həmişə demişəm, 20 yanvar faciəsi Almatı faciəsi qarşısında heç nə idi.

**-Etirazçılara atəş açılması hansı hadisədən sonra baş verdi?**

-Hərbi qüvvələr iğtişaşların ilk günündən meydandaydı. Dekabrın 16-19-u ərzində Almatının girişlərində 50 min hərbçidən ibarət qüvvə yerləşdirilmişdi, Aktau buxtasının giriş-çıxışı Xəzər hərbi donanmasının gəmi və katerləri vasitəsilə blokadaya alınmışdı. Daxili Qoşunların əsgərləri və hərbçilər meydanı mühasirəyə almışdı. Bu vaxt çox gənc və milliyyətcə rus olan bir əsgər təsadüfdənmi, yaxud plan üzrəmi, bilmədik, etirazçılara yaxınlaşıb onlardan bir siqaret istədi. Etirazçılar onu bir anda qamarlayıb, kütlənin içərisinə apardılar.Əsgəri elə o dəqiqə öldürdülər və meyidini də mühasirə yaradan hərbçilərin yaxınlığına atdılar. Bir anlığa, nə olduğunu anlamadıq və həmin əsgərin həmyerlisi, dostu olan başqa bir əsgərin hərbi yük maşınını sürətlə etirazçıların üzərinə sürdüyünü gördük. Onlarla insanın cəsədləri meydanla bir oldu.Etirazçılar həmin əsgəri də öldürdülər. Bu olaydan sonra bizə "atəş" əmri verildi. Meydan yüzlərlə insanın cəsədləri ilə doldu. Meydanda təxminən 600-dən çox cəsəd vardı. Amma qazaxların fərasətsizliyi onda oldu ki, bir dənə də cəsəd əldə edə bilmədilər, Çünki hərbçlər cəsədləri dərhal yığışdırır və yanğınsöndürənlərlə gəlib hər yeri yuyurdular. Bir dənə də iz qalmırdı. Cəsədlərin hamısını yığıb Kopçqay gölünə tökürdülər. Qazaxlar azərbaycanlılardan fərqli olaraq bu faciəni siyasiləşdirə bilmədilər.

**- Sovet Ordusunun nəyə "qadir" olduğunu göstərən daha hansı hadisələrdə şahid oldunuz?**

- 1989-cu ilin iyunun 1-dən 5-nə qədər olan tarixlərdə Özbəkistan Fərqanə hadisləri deyə bir iğtişaş baş verdi. Ermənilərin fitvası ilə Axısqa türklərinə qarşı yerli özbəklər tərəfindən qırğınlar başladıldı. Qırğızıstanın Oş vilayətində də eyni tipli iğtişaşlar oldu. Və bütün iğtişaşların sonluğu Almatıdakı sonluqla bitdi. Bu o deməkdir ki, Rusiya komandanlığı altında olan hərbçilər girdikləri ərazilərdə heç də "sülhməramlı" olmurlar.

**- Azay müəllim, məlumdur ki, bu ilin əvvəlində Qazaxıstanda başlayan iğtişaşların qarşısını almaq üçün Belarusdan 500, Tacikistandan 200, Ermənistandan 70 nəfər sülhməramlı göndərilib. Bu rəqəmlərdən fərqli olaraq Rusiyadan 3000 hərbçi Qazaxıstana yeridilib. Sizcə, niyə?**

- Qazaxıstanda qazaxlardan sonra ən çox ruslardı. Rusiya yəqin ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dəvətindən sonra orada yaşayan rusları da qorumağın vacib olduğunu bildirərək əsgərlərinin sayını artırıb.

**- Son illər Rusiya rəsmiləri Qazaxıstanın şimal hissəsinə iddialı olduqlarını, Şimal hissənin Rusiya torpaqları olmasını israrla deyirdi Sizcə, bu amil 3 minlik Rusiya qoşununun Qazaxıstana yerləşdirilməsinə əsas ola bilərmi?**

- Bayaq Almatıda, Fərqanədə, Oşda sovet ordusunun necə acımasızcasına xalqın üzərinə yeridiyini danışdım. Bunu 1990-cı ilin faciəli yanvar hadisələrində də gördük. Bir hərbçi, bir zabit kimi qeyd edim ki, SSRİ-nin varisi olan Rusiya ordusu mahiyyət etibarı ilə sovet ordusundan fərqlənmir və sadəcə ad dəyişib. Bunu 2008-ci ilin avqust ayında Rusiya-Gürcüstan müharibəsində də gördük. Qazaxıstandakı Rusiya ordusundan orada hakimiyyəti Rusiya maraqlarına uyğun idarə edilməsində istifadə ediləcək. Əgər nə vaxtsa Qazaxıstan hakimiyyəti və xalqı o ordunun ölkədən çıxardılmasını gündəmə gətirsələr bu Qazaxıstana baha başa gələcək. Yəni, Rusiya rəsmilərinin də iddia etdikləri Qazaxıstanın şimal bölgəsi Rusiyanın əlinə keçə bilər. Bu mümkün variantdır. Bir sözlə, Prezident Kasım-Jomart Tokayevin Rusiya ordusunu . Qazaxıstana dəvət etməsi bir neçə onilliklər qazax xalqının əleyhinə işləyəcək bir səhv qərar kimi yadda qalacaq.

**- Maraqlı müsahibəyə görə təşəkkür edirik.**

**Əntiqə Rəşid**

# QƏLBLƏRDƏ YAŞAYACAQ



**Elə insanlar var ki, onların ölümü sənə doğmalarının ölümü qədər yaxın olur. Dostum Sabir Nemətzadənin qəfil ölümü nəinki məni, onu tanıyanları bərk sarsıtdı. Keçən həftə zəng etdi ki, ayağım ağrıyır, mümkünsə həkimə birlikdə gedək. Səhərisi günü görüşüb onu tanıdığım həkimin yanına apardım. Həkim onu müayinə etdikdən sonra dərman yazdı. Bir neçə gün keçdikdən sonra dedi ki, bir az özümü yaxşı hiss edirəm. Üstündən iki gün keçmişdi. Səhərisi günü mənə zəng vuraraq dedilər ki, Sabir ürək tutmasından rəhmətə getdi. Biz Sabir müəllimlə uzun illərin dostlarıyıq. O, Sabunçu rayon Fövqəladə Hallar İdarəsində rəis müavini, rəis vəzifəsində işləmiş, polkovnik rütbəsinə qədər yüksəlmişdir. Təqaüdə çıxdıqdan sonra Azərbaycan Milli Konservatoriyasında müəllim kimi fəaliyyətini davam etdirdi. 2020-ci ilin yanvar ayında Yasamal rayon Ağsaqqallar Şurasının növbəti iclası keçirildi. Səs çoxluğu ilə İdarə Heyətinin üzvü seçildi. Keçirilən bütün tədbirlərdə çox fəallıq göstərirdi. O həm də "Cabir Novruz" Mədəniyyət Fondunun üzvü idi.**

Növbəti kitabı üzərində işləyirdi. Deyirdi ki, ilin sonu bitirib verəcəyəm sənə, oxuyarsan. Tez-tez məqalələr yazırdı, qəzetdə yazıları dərc olunurdu, hər dəfə yeni-yeni sahələrdən yazırdı.

Sabir Nematzadənin keçdiyi ömür yoluna nəzər saldıqda onun necə mənalı və şərəfli bir yol keçdiyinin şahidi olursan.

Bu yayda dedi ki, nəzir demişəm gərək səninlə Siyəzənə gedəm və orada qurban kəsdirib imkansızlara, kasıblara özüm paylayım. Beləliklə, Siyəzən şəhərinə getdik, dediyi qurbanlığı özü bir-bir payladı və çox razılıq etdi. Deyirdi ki, indi bir qədər rahat oldum. 2020-ci il Sabir müəllimin ailəsi üçün ağır itki oldu. Kiçik oğlu Samir 35 yaşında qəflətən dünyasını dəyişdi. Bu qəfil ölüm onun belini bükdü. Həmişə deyirdi ki, Samirsiz mənim üçün həyat yoxdur. Biz dostlar həmişə çalışırdıq ki, fikrini yayındıraq. Deyirdi ki, istəyirəm heç evə getməyim, elə sizinlə birlikdə vaxt keçirim. Bəzən elə olurdu ki, saatlarla söhbət edərdik, nahar vaxtı isə deyərdi ki, nərdi gətir oynayaq. Bax beləcə günləri yola verərdi. Yasamal rayon Ağsaqqallar Şurasının sədri çox hörmətli Cavanşir Qurbanov deyirdi ki, açarın birini siz özünüzə çıxarın, nahar vaxtı kənara getməyin. Elə də edərdik. Birlikdə nahar edib, nərd oynayardıq, uduzanda heç əsəbləşməzdi, elə deyirdi ki, hamınızı bu dəfə udacağam.

Çox xeyirxah adam idi. Söhbətlərində növbəti kitabını çıxarıb Space kanalına çıxmaq fikrini bildirirdi. Bir neçə tanınmış alimləri də cəlb edib efirdə çıxışlar etmək istəyirdi. Hətta əvvəlcədən razılığını da almışdı. Amma atalar demişkən, sən saydığını say, gör fələk nə sayır.

Sonda fikrimi ölməz Mikayıl Müşfiqin belə bir şeiri ilə bitirmək istəyirəm:

***Hayıf ömür qısa, arzu genişdir,***
***Kim bu qayğı ilə titrəməmişdir?***
***Bu vəfasız ömür, bu coşqun dərə,***
***Gərək boş-boşuna axıb keçməsin.***
***Bu gözəl cahanı sanıb pəncərə,***
***Hər gələn sadəcə baxıb keçməsin.***

Doğrudan da bu dünya bir pəncərəyə bənzəyir. Bu pəncərədən kimlər baxmayıb? Hər gələn baxıb keçər, deyib ulularımız. Lakin dünyaya göz açan hər hansı bir bəşər övladı özündən sonra yada düşər nəsə qoyub gedirsə o xoşbəxt adamdır. Əlbəttə, o adam xoşbəxt sayıla bilər ki, hər adı dilə gələndə, o ad qarşısında bir "rəhmətlik" kəlamı işlədilir.

Belə insanlardan biri də Sabir Nemətzadə olmuşdur. Sabir müəllim hər zaman biz dostlarının qəlbində əbədi yaşayacaq. Bu gün gücümüz onun ruhuna dualar oxumağa çatır.

**Ruhun şad olsun, Sabir!**

**Elşad Dağlı**

# Vətən müharibəsinin 2 500-dən artıq qazisinə əlillik təyinatı aparılıb

**2021-ci il ərzində Azərbaycanda 60 mindən çox əlillik təyinatı aparılıb. Bu barədə məlumat verən Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-sosial ekspertiza xidmətinin təşkili departamentinin müdir müavini İlkin Yusifov qeyd edib ki, bunlardan 18 minə yaxını ilkin əlillik, 43 minə yaxını isə təkrar əlillik təyinatı olub.**

İ.Yusifov bildirib ki, əlilliyin təyin edilməsi ilə yanaşı əlilliyin təyinatından imtina qərarları da verilir: "Əlilliklə bağlı təxminən 12 minə yaxın göndərişə sistem tərəfindən uyğunsuzluq aşkar edildiyinə görə imtina verilib. 60 minə yaxın göndərişə isə göndərişin natamam doldurması səbəbindən imtina verilib.

Bəzi hallarda müalicə kursu tam başa çatmadan göndərişlər də rəsimləşdirilir. Bu hallarda da əlavə müalicənin ehtiyac olması üçün imtina verilir. Əlavə müalicəyə ehtiyac olduğuna görə təxminən 56 min göndərişə imtina verilib. 4500-ə yaxın göndərişə diaqnozun əlillik əlaməti təyin etməməsi səbəbi ilə, 700-ə yaxın göndərişə isə diaqnozun öz təsdiqini tapmadığına görə imtina verilib".

İclasda əlillik təyinatı barədə danışan departament rəsmisi bildirib ki, 10 il fasiləsiz II dərəcə əlillik təyinatından sonra müddətsiz əlillik təyin olunur. I dərəcə əlillik isə ilk dəfədən müddətsiz təyin edilir: "Yaşa görə pensiya almaq hüququ olan şəxslərə də əlillik dərəcəsi müddətsiz təyin olunur. Bəzi hallar da var ki, bunlar da 413 nömrəli əsasnamədə əksini tapıb. Bunlar geridönməz proseslər, anatomik deffektlər, psixi qüsur halları olanda əlillik təyinatı müddətsiz olunur".

**Vətən müharibəsində ağır yaralanan 3 805 qazinin əlillik vəziyyətinin qiymətləndirilməsinin aparıldığını qeyd edən İlkin Yusifov qeyd edib ki, indiyədək Vətən müharibəsinin 2 500-dən artıq qazisinə əlillik təyinatı aparılıb: "Səhhəti ağır hal kimi qiymətləndirilən bütün qazilər tibbi-sosial ekspert komissiyalarının əməkdaşları tərəfindən evlərində müayinə olunub və protokollaşdırılaraq müvafiq təyinatlar aparılıb".**

# Ruben Mehrabyanın simasında ermənilərin Rusiyadan incikliyi və gözləntisi: "Bayağı sinizm..."

**44 günlük müharibədən sonra məğlubiyyəti hələ də boynuna almayan , Azərbaycan əsgərinə uduzduğunu həzm edə bilməyən bütün ermənilər hər gün birmənasız iddia irəli sürür, hər gün "bizi uduzduran düşmən" axtarışında olduğunusərgiləyir.**

Məsələn, Ermənistanın Beynəlxalq Münasibətlər və Təhlükəsizlik İnstitutununeksperti Ruben Mehrabyan əvvəl gündən belə düşünür ki, məhz Rusiyanın mövqeyi Dağlıq Qarabağdakı müharibəni mümkün edib. O hətta əlavə etmişdi ki, slində həm Avropalı tərəfdaşlar, həm də Tramp Amerikası buna göz yumdu:"Bu daTürkiyənin əl-qol açmasına zəmin yaratdı. Başqa sözlə, zaman çox dəqiq birşəkildə seçildi"

Ruben kimi minlərlə erməni də elə Ruben kimi düşünməkdə davam edir.

Əlbəttə, belə düşünmək onların işinə yarayır. 1.ci ona görə ki, bu fikir onlara özgüvən verir, onların Azərbaycana uduzmadığını, məhz uduzdurulduğunu iddia etməklə hələ də "qəhrəman xalq", "igid ermənilər " mifini yaşatmaqda, revanşistdüşüncələrini həyata keçirməkdə israrlı olduğqlarını isbat etməyə çalışırlar.

2-ci səbəb isə alınlarındakı "Rusiya vassalı", dolayısı ilə I Pyotrun dövründə və bütün zamanlarda Qafqazda Rusiyanın "çomağı", "çömçəsi" kimi ağır ləkələrini silməyə çalışırlar. Məlumdur ki, 1828-ci ildən bu günə qədər, bütün dünya Qafqaza rusların əli ilə yerləşdirilən ermənilərin tarix boyu hansı bəd əməllərlə ağalarına sadiq olduqlarını da izləyiblər. Daha dəqiq, erməniər nə qədər çabalasalarda üzərilərindəki qara və iyrənc ləkəni silməkdə acizdirlər.

Ekspert Ruben Mehrabyan kimi "diribaş" ermənilər bəzən öz aləmlərində "çıxış yolları" tapırlar. Yəni tapdıqlarını sanırlar.

Adalet.az xəbər verir ki, Mehrabyan Rusiyanın Ermənistandakı səfiri SergeyKopirkin Yeni il və Milad bayramı münasibətilə erməni xalqına ünvanladığı təbrik məktubunu analiz edib. O qeyd edir ki, əgər cənab Kopirkin erməni xalqına yeni ilmüraciətində zamanın bunların boş sözlər olmadığını göstərdiyini deyibsə, Rusiyasübut etməlidir ki, bunlar boş sözlər deyil. İstənilən yaxşı niyyət o deməkdir ki, dost hesab etdiyiniz ölkə nə qədər çox inkişaf etsə, bir o qədər yaxşıdır.



Əgər Rusiya bunu rəhbər tutmursa, deməli, cənab Kopirkin bayağı sinizmlə məşğuldur və sadəcə olaraq erməni xalqını çaşdırmağa çalışır. Rusiya özünü "açar" kimiaparmalı olsa, buna uyğun şəkildə davranılacaq",

**Qeyd edək ki, Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirkin müraciətində busözləri söyləmişdi:"Ölkələrimizin qarşısında duran vəzifələr nəinki onlar arasında əməkdaşlığın hərtərəfli inkişafı və dərinləşdirilməsinin aktuallığını nümayişetdirdi, həm də sübut etdi ki, Rusiya-Ermənistan müttəfiq münasibətləri sadəcə sözdə deyil. Bunların arxasında konkret işlər dayanır. Rusiya erməni xalqının ən qısa zamanda özünü təhlükəsiz hiss etməsinə və gələcəyə inamla baxa bilməsinə daha çox önəm verir".**

**Əntiqə Rəşid**

# Ekspert: "Yeni illə bağlı regionlarda kirayə qiymətləri kəskin artıb"

**Ötən il olduğu kimi, bu il də Yeni il ərəfəsində Bakıdan ölkənin regionlarına axın oldu. Koronavirus (COVID-19) pandemiyasına görə Azərbaycanı tərk etmək xeyli çətinləşdiyi üçün ölkə vətəndaşlarının əksəriyyəti 2022-ci ili müxtəlif şəhər və rayonlarımızda qarşılamağa üstünlük verdi. Təbii ki, heç də hamı hotellərə, istirahət mərkəzlərinə üz tutmadı. Ev kirayələyənlər də oldu. Bu isə təbii ki kirayə qiymətlərinə təsir etməyə bilməzdi.**

"Report" bu sahədə vəziyyətlə bağlı araşdırma aparıb.

Qubada evlərin kirayəyə verilməsində vasitəçilik edən Niyazi Əliyev deyir ki, bayram günlərində kirayə qiymətləri adi günlərlə müqayisədə təxminən 2 dəfə çox olub: "Əgər adi günlərdə Qubada evlərin birgünlük kirayə qiyməti 100 manat olurdusa, yeni il ərəfəsində bu məbləğ 180-200 manata çatdı. Çünki evlərə tələb yüksək səviyyədə idi.

Təklif etdiyimiz evlərin demək olar ki, hamısını birgünlük kirayəyə verə bilmişdik. Yəqin ki, Novruzda da Qubaya üz tutanlar olacaq, amma həmin vaxt tələbin Yeni ildəki kimi olacağını gözləmirik".

"Kirayə qiymətləri 300 manata qədər olur"

Daşınmaz əmlak bazarı üzrə ekspert Elnur Fərzəliyev də deyir ki, pandemiya regionlarda kirayə qiymətlərinə təsirsiz ötüşməyib: "Yeni il ərəfəsində gözəl təbiətə malik olan kəndlərdə evi bir günlüyə 80-100 manata kirayə verirlər. Bu da adi günlərlə müqayisədə kəskin çoxdur. Amma evlərin günlük kirayə verilməsi daha çox Qubada, Qusarda, Qəbələdə, İsmayıllıda məşhurdur. Bu ərazilərdə evlərin şəraitindən aslı olaraq bir günlük kirayə qiyməti 80 manatdan 300 manata qədər dəyişir. Şəkidə, Gəncədə, Lənkəranda isə bir nəfər üçün bir günlük kirayə qiyməti 20 manatdan 100 manata qədərdir".

Bundan başqa, ekspertin sözlərinə görə, ümumiyyətlə son illər regionlardakı daşınmaz əmlaklara maraq artmaqdadır və bu, onların alqı-satqı qiymətlərinə də təsir edir: "Bayram ərəfəsində vətəndaşlarımız pandemiyadan əvvəlki



kimi Türkiyə və digər ölkələrə səfər etmirlər: Artıq regionlarımız məşhurlaşır və əmlakın qiymətləri də artır. Monitorinq aparılsa görərik ki, bölgələrdə evlərin qiyməti əvvəlki illərlə müqayisədə dəfələrlə artıb. Konkret qiymətdə həyətyanı sahənin neçə kvadrat, neçə sot olması, evin təmiri, harada yerləşməsi mühüm rol oynayır. Məsələn İsmayıllının, Qubanın, Qusarın dağ və aran kəndləri var. Dağ kəndində qiymətlərlə aran kəndində olan qiymətlər tamamilə fərqlidir.

Regionlarda bina evləri də bahadır. Gəncə, Xaçmaz, Zaqatala və Balakən, Qubada bina evlərinin qiyməti Xırdalandakı qiymətlərlə eyniləşib. Təbii ki, əvvəllər qiymətlər bir neçə dəfə ucuz idi".

# 6201 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) minaaxtaranları ötən il 6201 hektar ərazini mina və partlamamış hərbi sursatdan (PHS) təmizləyərək aidiyyəti üzrə təhvil veriblər. Nəticədə piyada əleyhinə 4880, tank əleyhinə 2335 mina, habelə 11 min 205 ədəd PHS aşkarlanaraq zərərsizləşdirilib.**

Bu barədə ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov 2021-ci ilin yekunları ilə bağlı məlumat verərkən deyib.

ANAMA-nın rəhbəri bildirib ki, kənd təsərrüfatı təyinatlı 1981, məskunlaşma üçün nəzərdə tutulan ərazilər üzrə 1373, nəqliyyat infrastrukturu layihələri üzrə 1618, enerji xətlərinin çəkilməsi üçün 586 və digər layihələr üzrə 644 hektar ərazi təmizlənərək təhvil verilib. V.Süleymanov qeyd edib ki, Vətən müharibəsindən sonra ANAMA-ya təmizlənməsi həvalə edilən 55 layihədən 46-sı uğurla yekunlaşıb.

Təmizləmə əməliyyatları əsasən, energetika, kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı, nəqliyyat infrastrukturu, sənaye parkları, eləcə də xüsusi tapşırıqlar, yaşayış infrastrukturunun yaradılması və ekoloji qiymətləndirmə istiqamətlərində icra edilib.

**Ən mühüm layihələrdən Zəfər yolu, Zəngilan rayonundakı "Ağıllı kənd" yaşayış məntəqəsi və hava limanı, Füzuli-Hadrut avtomobil yolu, Xındırıstan-Ağdam elektrik xətti və digərlərini qeyd etmək olar.**

**Nicat Novruzoğlu**

# Füzuli - o gözəl məkan...

**...Qarabağın ən gözəl və ən füsunkar guşələrindən biri də Füzulidir. O Füzuli ki, bir zamanlar erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Və biz bu ağrı-acını nə az, nə çox, düz 30 il yaşamalı olduq və düz 30 il Füzulinin dağları, dərələri, ormanları, çölləri, bulaqları üçün dodağımız dörd yerdən çatladı. Nə yaxşı ki, 1994-cü ilin yanvarın 5-də və 6-da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu Füzulinin Horadiz şəhərini və 22 yaşayış məntəqəsini erməni işğalından azad elədi. Və az bir vaxtda etmənilərin yandırdığı, yerlə-yeksan elədiyi Horadiz şəhəri və digər yaşayış məntəqələri yenidən tikildi, quruldu, bərpa edildi.**

Ən möhtəşəm qələbəmiz isə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında oldu. 44 gündə Azərbaycanın işğal altında olan 9 rayonu azad edildi. O cümlədən, 44 gündə Füzuli rayonunun işğalda olan bütün kəndləri də şəhər mərkəzi daxil olmaqla, ermənilərdən geri qaytarıldı və düşmən darmadağın edildi. Bax, bu gün deyə bilərik ki, Füzuli çox rahat və çox sakit bir həyat tərzi yaşayır.

Hələ öncədən onu qeyd edək ki, 1994-cü ildə işğaldan azad olunmuş Horadiz şəhərində və eləcə də digər 22 yaşayış məntəqəsində çox möhtəşəm işlər görülüb. Həmin kəndlərdə yenidən asfalt yollar inşa edilib. Yaşayış məntəqələrinə təbii qaz, su xətləri çəkilib. Bir sözlə, bütün infrastruktur bərpa edilərək ən müasir səviyyəyə çatdırılıb. Eyni zamanda rayon ərazisində yeni məktəblər, uşaq bağçaları, sosial obyektlər, möhtəşəm parklar və xiyabanlar inşa edilərək əhalinin istifadəsinə verilib.

Təkcə bir faktı qeyd edək ki, Füzulidəki Heydər Əliyev parkı və Bayraq meydanı qeyri-adi görünüşü ilə seçilir. Düzdü, bütün rayonlarda bu cür parklar və meydanlar var. Amma Füzulidə olan Heydər Əliyev parkı və Bayraq meydanı Allaha and olsun ki, çox möhtəşəmdir. Mən bir neçə dəfə İranda olmuşam. İranın Aslandüz yaşayış məntəqəsindən gecə Horadiz şəhərinə baxmışam. Sanki Parisə bənzəyir. Bunu tək mən demirəm ey, həm də Cənubda yaşayan azərbaycanlı qardaşlarımız deyirlər. Çünki bir zamanlar ilan mələyən bu təpəliklərdə çox möhtəşəm bir park salınıb, minlərlə ağaclar əkilib və güllər, çiçəklər bəslənib. Bax, bu möhtəşəm Bayraq meydanına elə gözəllik verən də məhz saydığımız bu amillərdir. İsti yay günlərində nəinki Horadiz şəhərində yaşayanlar, qonşu kəndlərin adamları da sərinlənmək üçün bax, bu möhtəşəm parklara gəlir. Hansı ki, Sovet dönəmində, yay günlərində Horadizdə dayanmaq olmurdu. Amma indi Horadiz nəinki Füzulinin, ölkəmizin ən gözəl şəhərlərindən birinə çevrilib. Çünki burda son 10 ildə on minlərlə şam ağacları və digər ağaclar əkilib və bu ağaclar da şəhərə qeyri-adi bir gözəllik və füsunkarlıq gətirir. Çox yox, bir dəfə Horadiz şəhərinə yolunuz düşsə, bu möhtəşəm gözəlliklərin şahidi olarsınız.




Füzuli Rayon İcra hakimiyyətinin başçısı Alı Alıyevlə söhbət edəndə həmişə deyir ki, gördüyünüz nə abadlıq, quruculuq, möhtəşəm işlər varsa, hamısı Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin əməyinin bəhrəsidir. Çünki cənab prezident həmişə bizim rayona, bizim camaata çox böyük kömək göstərib, arxa durub. Və bizim camaat da qolunu çırmalayıb, o böyük layihələrin həyata keçirilməsində qüvvə və bacarıqlarını əsirgəməyiblər. Füzuliyə gedən insanlar bir şeyin də şahidi ola bilərlər. Yolboyu bütün kəndlərdə 9 il bundan qabaq çinar ağacları əkilib. O çinar ağacları artıq indi çox böyüyüb, yolun sağında və solunda gözəl bir mənzərə yaradır. Hətta isti yay günlərində kimsə istiyə düşsə, o çinar ağaclarının kölgəsində dincələ bilər. Ümumiyyətlə, Füzulinin 1994-cı ildə işğaldan azad olunmuş bütün kəndlərində yollarda elə çinar ağacları əkilib.

Onu da qeyd edək ki, rayonda ən müasir standartlara cavab verən Füzuli Diaqnostika Mərkəzi neçə illərdi ki, fəaliyyət göstərir. Burda tibbin ən yeni nailiyyətləri olan müasir avadanlıqlar və cihazlar quraşdırılıb. Yəni insanlar əvvəllər olduğu kimi, müayinə üçün Bakıya yox, elə Füzuli Diaqnostika Mərkəzinə üz tuturlar. Bu isə o deməkdir ki, rayon əhalisinin sağlamlıq məsələsi də dövlətin və hökumətin prioritet vəzifələri sayılır. Bununla yanaşı, son vaxtlar rayonda daha möhtəşəm bir xəstəxana kompleksi - Füzuli Mərkəzi Rayon Xəstəxanası istifadəyə verilib. Xəstəxanada 44 günlük Qarabağ savaşında yaralanmış əsgərlərimiz ən çətin vəziyyətdə müayinə olunub, müalicə edilib və cərrahiyyə əməliyyatları aparıb. Füzuli həkimləri 44 günlük müharibədə əsl mücadilə və mübarizə aparıblar. Belə ki, onlar neçə-neçə ağır yaralanmış əsgərlərimizi ölümün pəncəsindən xilas ediblər və həyata qaytarıblar. Təbii ki, müharibə şəraitində həkimlərin işləməsi o qədər də asan deyildir. Çünki həkimlər bəzən döyüş mövqeyindən yaralı əsgərlərimizi çıxararkən özləri şəhid olurdular. Bax, Azərbaycan həkimləri 44 günlük Böyük Vətən Savaşında belə bir çətin yol keçiblər. Onlar həyatlarını təhlükəyə atmaqla yaralı əsgərlərimizi ölümdən xilas ediblər.

Şükürlər olsun ki, indi Füzulinin bütün yaşayış məntəqələri öz əlimizdədir. Və həmin kəndlərdə minatəmizləmə əməliyyatları və infrastruktur işləri həyata keçirilir. Hətta Füzulinin işğaldan azad edilmiş bir çox yaşayış məntəqələrində demiya torpaqlarda



taxıl da əkilib. Onu da qeyd edək ki, Füzuli rayonu ötən il 100 min tondan çox taxıl istehsal edib. Bu il isə daha böyük məhsuldarlıq əldə ediləcək. Ən azından ona görə ki, işğaldan azad olunmuş bir çox yaşayış yerlərində əkin sahələrinə taxıl səpilib və o taxıl cücərməyə başlayıb.

**Bu gün Füzulidə çox möhtəşəm abadlıq və quruculuq işləri davam edir. O möhtəşəm işlərdən biri isə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi oldu. Həmin mərasimdə Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etdilər. Oktyabrın 26-da istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı indi fəaliyyətini uğurla davam etdirir. Artıq demək olar ki, Hava Limanı müxtəlif ölkələrdən məmləkətimizə gələn təyyarələri qəbul edir. Bu isə o deməkdir ki, Füzuli artıq dünyada tanınır. Çünki bu rayon gündən-günə abadlaşır, yenidən qurulur və möhtəşəm işlər görülür. Cənab Prezident İlham Əliyevin dediyi kimi, ”Biz işğaldan azad olunmuş şəhərlərimizi və kəndlərimizi əvvəlkindən də gözəl tikib xalqımıza təhvil verəcəyik”. Bəli, bu həqiqətən də belədir. Bu gün tək Füzulidə deyil, işğaldan azad olunmuş bütün rayon və kəndlərimizdə möhtəşəm və bənzəri olmayan işlər görülür...**

**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Rəqs edən barmaqlar

**Köhnə adətimdi. Musiqi barəsində düşünəndə dərhal gözlərimin önünə barmaqlar, qulaqlarıma isə lap uzaqdan ruhumu oxşayan həzin bir səs gəlir. Və mən də həmin o barmaqlarla o səsin işığında barəsində düşündüyüm musiqiyə tərəf getməyə başlayıram. Bilmirəm bu yolun uzunluğu nə qədər olub. O vaxta qədər gedirəm ki, artıq musiqinin olduğu məkanın qapısını açıb içəri daxil oluram. Bax, həmin o içəri daxil olanda da musiqi mənim içimə hopur. Biz birlikdə, yəni bir-birimizin içində yaşayırıq. Bu yaşamaq da ya ani olur, ya da həmişəlik.**

O vaxt ani olur ki, istədiyimi, arzuladığımı, axtardığımı tapa bilmirəm. Necə deyərlər, gözü yumulu, qaranlıq otaqda tapmaq istədiyimin əvəzinə əlim ya divara dəyir, ya da boşluğa...

O vaxt əbədi olur ki, axtardığımı tapıram. Özdə uşaq axtardığını, istədiyini tapanda sevindiyi kimi mən də sevinirəm. Və bilirəm ki, ruhuma hopan elə mənim ruhumun bir hissəsi kimi ömürlük yol-yoldaşım olacaqdı...

Dünən, yəni dekabrın 23-də Bakıda hava qarışmışdı. Qış öz ilk ismarıcını vermişdi şəhərə. Hava həqiqətən şaxtalı... Sulu qar və bir də Bakının qışa hazır olmayan küçələri...

Evdən çətirsiz çıxmışdım. Ona görə də üz-gözümə əl gəzdirən sulu qarın, yağışın və bir də küçələrə şütüyən maşınların ətrafa dağıtdığı su damcılarının fərqinə varmadan paytaxtın ən möhtəşəm ünvanlarından birinə, zaman-zaman musiqimizin nəhənglərini qoynuna almış, ifalarını yaddaşına köçürmüş filarmoniyaya gedirəm. Sonuncu dəfə burada 5 il öncə olmuşdum. Sonra baş verən hadisələr, xüsusilə pandemiya, yəni COVİD-19 kefimizə soğan doğradı. Və bir çox ünvanlar kimi filarmoniyanın da yolunu müvəqqəti unutdum. Bu gün isə ağsaqqal dostum, özümün, ailəmin əzizi olan Aslan müəllimin dəvəti ilə bu məbədə gedirəm. Öncədən bilirəm ki, burada musiqi dolu anlar yaşayacam. Bunu bilməyim də sirr deyil. Çünki bu axşam filarmoniyanın möhtəşəm səhnəsində, barəsində dəfələrlə yazdığım Azərbaycanın gənc istedadlarından biri, beynəlxalq və respublika müsabiqələrinin laureatı, dünyanın ən böyük və nüfuzlu musiqi yarışmalarının iştirakçısı, eləcə də ən nüfuzlu salonlarda Azərbaycan və dünya



musiqilərini səsləndirən Nərmin Nəcəfli çıxış edəcək. O, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrin həm müşayiəti ilə, həm də solist kimi tamaşaçılar qarşısında öz istedadını nümayiş etdirəcəkdi.

Bütün bunlardan xəbərdar olduğuma görə yol boyu o ifanın necə alınacağını təsəvvür etməyə, xəyalımda canlandırmağa çalışıram. Amma deyəsən xəyala qapılmağa ehtiyac qalmadı. Ona görə ki, iki saata yaxın davam edən bu konsertdə ifalar və alqışlar bir-birini tamamladı. Doğrudur, zalda böyük anşlaq olmasa da, amma tamaşaçılar, musiqini duyanlar, musiqini yaşayanlar idi. Onların arasında olmaq mənə də və təvazökarlıqdan uzaq olsa da, musiqi müəlliməsi olan qızım Nilufərin də olması şəxsən bizim üçün qürurverici idi...

Dünyanın bir çox tanınmış nəhəng bəstəkarlarının əsərləri orkestr tərəfindən ifa olunduqca mənə elə gəlirdi ki, musiqilərlə birlikdə salondakı ovqat da, münasibətlər də dəyişirdi. Çünki həmin fərqli bəstəkarların özünəməxsus əsərləri bir orkestrin ifasında səslənsə də, amma ifaçılar, xüsusilə orkestrin baş dirijoru və bədii rəhbəri, xalq artisti Fəxrəddin Kərimovun musiqini elə məharətlə təqdim edirdi ki, şəxsən mən həmin musiqinin özü ilə birlikdə onun dünyaya gəldiyi mühitə və məkana gedə bilirdim. Demək həqiqətən dili olmayan musiqi əslində ən tanınmış qiraətçidən, dil pəhləvanından daha dəqiq özünü təqdim etməyə qadir imiş.

Bir-birini əvəz edən ifalardan sonra aparıcı Nərmin Nəcəflini təqdim etdi. Gənc pianoçu röyalın arxasında öz yerini tutanda mən onun oturmaq səliqəsinə diqqət yetirdim. Yəni ifaçı röyal arxasında yerini elə nizamlayırdı ki, sanki doğma bir yerdə əyləşib ən çox sevdiyi bir işlə məşğul olmağa hazırlaşır. Bu işdən daha çox həmsöhbət olmağa bənzəyirdi. Yerini rahlayandan sonra ovcunun içərisindəki əl dəsmalını sakitcə bir kənara qoyub içində dua edirmiş kimi röyala bu möhtəşəm məbədgahın tavanını və bir də dirijora tərəf baxdı. Və mən öz-özümə düşündüm ki, Nərmin Nəcəfli həmin an ürəyində ”Ya Allah, başladıq!” - dedi. Hər halda bu mənim intiusiyamdır, yanıla da bilərəm və düşünürəm ki, burada böyük bir qəbahət də etmirəm...

İfa başladı. İlk akkordlardan ürəyim səksəndi. Çünki ağ şirmayi dillərin üzərində barmaqlar rəqsə başladılar. Bu an gözümün qabağına ”Qu quşu” baletindəki möhtəşəm rəqs gəldi. Bax, Nərminin barmaqları da o cür rəqs edirdi. Özü də o rəqsə qoşulmuşdu. Çünki mən birinci sırada əyləşdiyimdən demək olar ki, onunla aramız çox yaxın olduğundan sifətindəki mimikanı da izləyə bilirdim. Görürdüm ki, Nərmin barmaqlarının ucunda musiqini ən incə nöqtələrindən notda yer alan məqamına qədər bir-bir incələyir və incələnən musiqi onun öz ruhuna, öz daxili dünyasına bir işıq kimi hopur və orada da filarmoniyanın zalına yayılır. Bunu hiss etmək üçün, bunu təsvir etdiyim formada qəbul etmək üçün həmin o anları görmək lazımdır. Çünki o anları yüzə yüz təqdim etməyə gərək musiqi bilicisi olasan. Mən isə sadəcə musiqi sevən bir dinləyici, tamaşaçıyam. Dediklərim də, yazdıqlarım da, dinləyici, tamaşaçı fikirləridi. Öncə orkestrlə birlikdə Motsartın ”Fortepianino və orkestr üçün 23 nömrəli konsertin” sonra solist kimi Adil Bəbirovun ”Prelüd-skertso” - ifa etməsi mənim üçün Nərminin hədiyyəsi idi. Bu gecənin hədiyyəsi və bu gecə Nərminin barmaqları filarmoniyada, röyalın dilləri üzərində rəqs edirdi. Özü də çox möhtəşəm bir rəqs. Yaddaşa yazılan bir rəqs!..

Təbii ki, bu möhtəşəm konsertin sonunda ifaçıya bağışlanan güllərin sayı da, çeşidi də, rəngləri də o ifanı dəyərləndirən mükafat səviyyəsində deyildi. Güllər nə qədər çox olsa da, buketlər nə qədər çox olsa da barmaqların rəqsi qeyri-adi idi!..

**Bəli, dünən, yəni dekabrın 23-də filarmoniyada klassik musiqi gecəsində simfonik əsərlərin ifası yaddaqalan oldu. Bunun üçün Mədəniyyət Nazirliyinin və filarmoniya rəhbərliyinin birgə layihəsi olan ”Gənc istedadlara dəstək” həqiqətən təqdir olunmalıdır. Çünki istedadlara qayğı mütləq gərəkdir. Bu, Azərbaycan üçün, Azərbaycan mədəniyyəti və musiqisi üçün zəruridir. Şükürlər olsun ki, aidiyyatı qurumlar bu addımları atırlar və biz, yəni həmin gecənin iştirakçıları foyedə söhbət edərkən yaşadığımız anlar üçün təşkilatçılara təbii ki, öncədən Nərmin Nəcəfliyə minnətdar olduq. Dostlarım Nəbi müəllim və Azər bəy bizi bir araya gətirən musiqili anların unudulmaz olduğunu təkrar-təkrar vurğuladılar. Deməli, gecə alındı, tədbir ürəyimizcə oldu və yaddaşımıza Nərminin rəqs edən barmaqlarının möhtəşəm ifası köçdü.**

**Əbülfət Mədətoğlu**

**Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli qurumun 2021-ci ildəki fəaliyyətinə və 2022-ci il üzrə nəzərdə tutulmuş planlara dair mətbuat konfransı keçirib. Mətbuat konfransında hesabat verən rəis bildirib ki, "Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin işğaldan azad edilmiş ərazilərdə şəhərsalma fəaliyyəti sahəsində sənədləşdirmə işlərinin təşkili haqqında 26 iyul 2021-ci il tarixli 82 nömrəli Sərəncamına əsasən Mədəniyyət Nazirliyi və digər dövlət qurumlarının nümayəndələrindən ibarət komissiya yaradılıb".**

# Azad olunmuş ərazilərdəki abidələrin bərpası üçün yol xəritəsi hazırlanıb



A.Cəfərli bildirib ki, komissiyada təmsil olunan dövlət orqanları tərəfindən işğaldan azad edilmiş ərazilərdə tikinti işləri üçün torpaq sahələrinin istifadəyə, habelə icarəyə verilməsi ilə bağlı zəruri sənədlərin vaxtında rəsmiləşdirilməsi məqsədilə həmin torpaq sahələrinə yerində birgə baxış keçirilib və baxışın nəticəsinə uyğun olaraq müvafiq rəy təqdim olunub: "Dövlət Xidmətinin təşəbbüsü ilə arxeoloji abidələrin qorunmasının təmin edilməsi məqsədilə bu layihələrin icrası nəzərdə tutulan ərazilərdə operativ tədqiqat işlərinin aparılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının arxeoloqları da cəlb edilib. Azad olunmuş ərazilərdə şəhərsalma və infrastruktur fəaliyyəti zamanı mədəni irs nümunələrinin qorunması məqsədilə obyektlərin (yarımstansiyalar, dəmir yol və avtomobil xətləri, su anbarları və s.) tikintisi planlaşdırılan ərazilərə baxış keçirilib və müvafiq rəylər hazırlanaraq aidiyyəti orqanlara göndərilib". A. Cəfərli vurğulayıb ki, işğaldan azad olunmuş şəhər və rayonlarda tarix-mədəniyyət abidələrinin qorunması və bərpası ilə əlaqədar yol xəritəsi hazırlanaraq aidiyyəti üzrə təqdim olunub: "İnfrastruktur layihələrinin icrası zamanı işğaldan azad edilmiş rayonlarda yerləşən abidələrin, tarixi-memarlıq və arxeoloji əlamət daşıyan obyektlərin qorunması, qabaqlayıcı mühafizə tədbirlərinin təmin edilməsi məqsədilə elektron xəritələr tərtib edilib və aidiyyəti orqanlara təqdim olunub".

Şuşa şəhərindəki abidələrlə bağlı "Bərpa təlimatı"nında hazırlandığını qeyd edən rəis qeyd edib ki, sənəddə bir neçə əsas istiqamətlər üzrə məlumat və tövsiyələrin öz əksini tapıb: "Bunlar işğalın nəticələri və səbəb olduğu dağıntılar, abidələrin monitorinqi və inventarlaşdırılması, abidələrin bərpası və regenerasiyası, bərpa prosesi, abidələrin identifikasiya və lokalizasiya məlumatları, tikililərin tipologiyası və xüsusiyyətləri, abidələrin bərpa statusu və risk faktorları, onların qorunması üçün təcili mühafizə tədbirləri, abidələrin tarixi-memarlıq tədqiqatları və memarlıq tipologiyasıdır". Zəfər və İşğal muzeyləri barədə məlumat verən Xidmətin rəhbəri bildirib ki, bu barədə xidmət tərəfindən müvafiq təkliflər təqdim edilib: "Dövlət Xidməti tərəfindən Ağdam şəhərində Üzərliktəpə arxeoloji abidəsinin, Cümə məscidinin, İmarət abidələr kompleksinin, Qiyaslı kənd məscidinin bərpası ilə bağlı konsept və layihələr hazırlanıb, Üzərliktəpə yaşayış yerində arxeoloji qazıntıların aparılması təşkil olunub. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin müraciəti əsasında işğaldan azad olunmuş Şuşa, Ağdam, Füzuli rayonlarının Baş Planı - Ərazilərin bərpası və yenidən qurulması üzrə dayanıqlı inkişafa dair Şəhərsalma Konsepsiyası ilə bağlı müvafiq rəy Dövlət Xidməti tərəfindən hazırlanmış və aidiyyəti üzrə göndərilib. Ağdam, Cəbrayıl və Füzuli rayonlarında Zəfər Muzeyi və açıq hava altında təşkil ediləcək İşğal Muzeyi ilə bağlı konsepsiya sənədlərinin hazırlanması üçün Dövlət Xidmətinin əməkdaşları müvafiq orqanlarla birlikdə əraziyə baxış keçirib və İşğal Muzeyinin yaradılacağı ərazi ilə bağlı müvafiq təkliflər təqdim edib".

**Abidələrin mühafizə zonalarının zəbt edilməsi və özbaşına tikinti işlərinin aparılması ilə bağlı ötən il ərzində bir sıra faktlar aşkar olunduğu məsələsinə də toxunan A.Cəfərli bildirib ki, abidələrin qəsdən korlama və ya məhv edilməsi ilə bağlı aşkar olunmuş 7 halla bağlı hüquq-mühafizə orqanlarına, 12 halla bağlı isə yerli icra hakimiyyəti orqanlarına müraciət olunub.**

**Nicat Novruzoğlu**

